www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 aprel 2015-ci il Cümə № 81 (6109) Qiyməti 40 qəpik

**Xəbər**

## Suriyadan qayıdan "cihadçı"lardan şok etiraflar

yazısı səh.3-də

**Gündəm**

### ABŞ-a yenə "Bakıda inqilab" ittihamı



Bu dəfə amerikalı analitiklər Vaşinqtonun keçmiş SSRİ məkanındakı planlardan yazdılar

yazısı səh.9-da

### Şeyxdən təxribat xəbərdarlığı

yazısı səh.10-da

*"AzerRos" prezidenti:*

### "Öz millətini satan Abbas Abbasov mənə maraqlı deyil artıq"

yazısı səh.7-də

### Uşaqbaz keşişlər və bic doğan rahibələrin ünvanı...- katolik kilsəsi

yazısı səh.13-də

### İŞİD daha bir azərbaycanlını "agent" kimi edam etdi

yazısı səh.10-da

### Putin dünyanı maraqlandıran suallara cavab verdi

yazısı səh.4-də

### Davudoğlu erməni müşavirini işdən niyə çıxardı?

yazısı səh.2-də

### AMİP-də sədr seçkisi keçiriləcək

yazısı səh.6-da

### Gizirimiz şəhid oldu

yazısı səh.7-də

### Xədicə İsmayıla mükafat verildi

yazısı səh.5-də

### Əfvlə xəbərləri təsdiqini tapmaqdadır

yazısı səh.4-də

### Toy və yaslardakı israfçılığa niyə son qoyulmadı?

yazısı səh.15-də

## 5 paytaxtın gözü Obamada: "soyqırım" deyəcəkmi?

# QƏRB TÜRKİYƏNİ RUSİYANIN MÜTTƏFİQİNƏ ÇEVİRİR

ABŞ prezidenti Roma Papasının, Avropa Parlamentinin səhvini təkrarlayarsa, Türkiyə-Qərb münasibətləri uzun müddətə korlana, Ankara geridönməz şəkildə Moskvaya yaxınlaşa bilər; Ağ Ev başçısı bu prosesi durduracaqmı?




yazısı səh.8-də

## Ziya Məmmədovla Arif Əsgərovun 200 milyonluq şərikliyi - deşifrə!

Azərbaycandan talan olunan pulların hesabına Rusiyada biznes qurub, istehsal etdikləri taxılı baha qiymətə ölkəmizə satırlar; "Tovuzlu Nəsrəddin" sadə biznesmendən böyük iş adamına necə çevrildi...

yazısı səh.3-də



Valeri Gerasimov

### Rusiya Baş Qərargah rəisindən Qarabağda savaş xəbərdarlığı

yazısı səh.11-də



### Rəsul Cəfərova 6 il 6 ay həbs cəzası verildi

yazısı səh.6-da



Əli Həsənov

### İqtidar təmsilçisindən Avropa Parlamentinin qərarına sərt reaksiya

yazısı səh.9-da

# Gürsüstan parlamentində erməni-azərbaycanlı qalmaqalı

**Erməni deputat Samvel Petrosyanın Gürsüstan parlamentində uydurma erməni soyqırımının tanınması barədə verdiyi təklif siddi etirazlara səbəb olub.**

ANS PRESS-in məlumatına görə, gürcü jurnalist Zviad Mçedlişvili bunun parlamentdə böyük gərginlik yaratdığı bildirib. Onun sözlərinə görə, parlamentin spikeri David Usupaşvili erməni deputata sərt nəzərlərlə baxıb. Deputatlar Samvel Petrosyanın çıxışını kəsməyə çalışıblar. Erməni deputat isə inad göstərərək çıxışını başa çatdırıb.



**Müxalifətçi azərbaycanlı deputat Azər Süleymanov erməni deputatın sözlərini uydurma adlandırıb.** "Bu, vətəndaş qarşıdurması, vətəndaş müharibəsi olub. Türkiyənin bütün arxivləri açıqdır, əmin ola bilərsiniz ki, türklər ermənilərdən çox ölüb. Əgər 100 il qabaqdan danışırıqsa, onda daşnaklar və Qızıl Ordu 1918-ci ildə Azərbaycanda 100 mindən artıq adamı öldürüb. Biz hələ iyirmi il qabaqkı Qarabağ hadisələrini yaxşı xatırlayırıq", - deyə Süleymanov vurğulayıb.

Hakim partiyanı təmsil edən Mahir Dərziyev də onu dəstəkləyərək bildirib ki, uydurma soyqırımın tanınması Gürsüstanın strateji tərəfdaşı Türkiyə ilə münasibətləri pisləşdirəcək.

Müxalifətçi deputat Nuqzar Tsiklauri isə bütün deputatları təklifi müzakirə etməməyə çağırıb. Müzakirələrə spiker David Usupaşvili son qoyub və bildirib ki, bu məsələ Gürsüstan parlamentində müzakirə olunmayasaq.



## İlham Əliyev Bakıya gətirilən yeni metro qatarlarına baxdı

**Aprelin 16-da Azərbaycan pezidenti İlham Əliyev Bakı Metropolitenində olub. Dövlətimizin başçısı Bakı Metropoliteninin Nəriman Nərimanov adına elektrik deposunda metropolitenin qatar parkının yenilənməsi məqsədilə paytaxta gətirilən yeni qatarlarda yaradılan şəraitlə maraqlanıb. Yeni nəsil vaqonların tutumu 330 sərnişin təşkil edir.**

Köhnə vaqonlarda isə bu rəqəm 308 idi. Bu texniki göstəricilərdən göründüyü kimi, müasir tələblərə cavab verən yeni qatarlar ən mütərəqqi texnologiyaya, idarəetmə üsuluna malik olmaqla, sərnişinlərin rahat və təhlükəsiz daşınmasını yüksək səviyyədə təmin edəcək.

Qeyd edək ki, son vaxtlar Bakı Metropolitenində aparılan abadlıq işləri nəticəsində depo ərazisindəki park yenidən qurulub. Burada depo işçiləri üçün yeməkxana və ehtiyat avadanlıq saxlanan böyük anbar kompleksi tikilib.

## Nazarbayev Türkiyəni "Putin İttifaqı"na qoşulmağa çağırdı

**Avrasiya İqtisadi Birliyi Türkiyə üçün türk biznesinin yeni bazarlara çıxması imkanlar açacaq. Oxu.az TASS-a istinadla xəbər verir ki, bu barədə Qazaxıstan prezidenti Nursultan Nazarbayev türkiyəli həmkarı Rəcəb Təyyib Ərdoğanla danışıqların yekununda bildirib.**

"Qazaxıstan Türkiyə vasitəsilə Avropa və Yaxın Şərqə çıxa bilər. Avrasiya İqtisadi Birliyi türk biznesinə yeni bazarlara çıxmağa yol açır", - Nazarbayev mətbuat konfransında deyib.

Onun sözlərinə görə, hər iki ölkə əməkdaşlığın inkişafı üçün böyük potensiala malikdir.

Bununla əlaqədar Qazaxıstan prezidenti türk biznesini "Nurlı jol" infrastruktur layihəsinin və respublika sənayesinin inkişafı üçün təşəbbüslərin həyata keçirilməsində iştiraka dəvət edib.

Eyni zamanda Qazaxıstan rəhbəri Türkiyə ilə qarşılıqlı ticarətin həcminin azaldığını vurğulayıb.

"Ötən il iki ölkə arasında ticarət dövriyyəsi 3,5 mlrd. dollar təşkil edib ki, bu da əvvəlki illə müqayisədə azdır. Lakin bu dünya böhranının təsiri üzündən baş verir", - Nazarbayev deyib.

## Bakıda taksilərə qarşı "oblava" başlayır

**"Aprel ayının sonu, mayın əvvəlindən qeyri-qanuni taksiçiliklə məşğul olan sürücülərə qarşı "hücum" başlayacaq." Bunu ANS TV-nin efirində yayımlanan "Günə Baxan" verilişində Nəqliyyat Nazirliyi İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Namiq Həsənov deyib. Nazirlik rəsmisi bəzi mərkəzi küçələrdə sıxlığın yaranmasını avtobus dayanacaqlarında taksilərin saxlanması ilə izah edib.**

"Buradan yolu nəzərdə tutmayan yerdən keçən piyada və avtomobillərini dayanacaqlarda saxlayan taksi sürücülərinə bir daha müraciət edirik ki, buna son qoysunlar. Bu cür hallara ilk növbədə ictimai qınaqla son qoymaq olar", - deyə Namiq Həsənov bildirib.

### Başsağlığı

**Milli Strateji Düşüncə Mərkəsinin sədri İsa Qəmbər Bütöv Azərbaycan Partiyasının sədri Elşad Musayevə qardaşı Şahzadənin vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**Müsavat Partiyasının başqanı Arif Hacılı və partiyanın Divanı Bütöv Azərbaycan Partiyasının sədri Elşad Musayevə qardaşı Şahzadənin vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**


"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


## Məşhur müxalifətçi jurnalist öldürüldü

**Ukraynanın paytaxtı Kiyev şəhərində məşhur müxalifətçi jurnalist Sergey Suxobok qətlə yetirilib.**

Aznews.az xəbər verir ki, bu haqda məlumatı "rosbalt" saytı yayıb.

"ProUA" və müxalifətyönlü "Obkom" internet nəşrlərinin yaradıcısı Sergey aprel ayının 12-dən 13-nə keçən gecə öldürülüb.

İnsidentin detalları haqda açıqlama verilmir.

Suxobok 1998-ci ildən jurnalistika sahəsində çalışır. Onun ilk iş yeri "Delovoy Donbas" həftəlik qəzeti olub.

## Beyləqanda əkin sahəsindən 33 raket tapıldı

**Beyləqan rayonunun Xaçınabad yaşayış məntəqəsi ərazisində əkin işləri aparılarkən partlamamış hərbi sursat aşkar olunub.**

ANAMA-nın mətbuat xidmətindən APA-ya verilən məlumata görə, rayon rəhbərliyinin aidiyyəti üzrə müraciətinə əsasən, 15.04.2015-ci il tarixində ANAMA-nın mütəxəssisləri tərəfindən əraziyə baxış keçirilib, aşkarlanan 33 ədəd "PQ-7" tipli idarə olunmayan tank əleyhinə raketin partlatma yolu ilə yerində zərərsizləşdirilməsi planlaşdırılır.

Hazırda ərazidə təmizləmə əməliyyatları icra olunur.

Bundan başqa, Ağstafa rayonu Vurğun qəsəbəsində yerləşən "Limonluq" restoranının yaxınlığında da partlamamış hərbi sursat aşkarlanıb. Rayon rəhbərliyinin aidiyyəti üzrə müraciətinə əsasən, 13.04.2015-ci il tarixində ANAMA-nın mütəxəssisləri tərəfindən əraziyə baxış keçirib, aşkarlanan 1 ədəd 130 mm-lik BR-482 model top mərmisi Ağstafa rayonu ərazisində yerləşən Mərkəzi Məhvetmə Ərazisinə daşınaraq, partlayış yolu ilə zərərsizləşdirilib.




## Tanınmış dj Ramil Əşrəfov beynəlxalq axtarışa verilib

**Azərbaycanın tanınmış dj-yi Ramil Əşrəfov beynəlxalq axtarışa verilib. APA-nın məlumatına görə, bu barədə İnterpolun saytında məlumat yerləşdirilib. Məlumata görə, 36 yaşlı Ramil Əşrəfov vergidən yayınmaqda təqsirləndirilir. R. Əşrəfov Azərbaycanda olmadığı üçün onun barəsində dövlətlərarası axtarış elan olunub və saxlanılması üçün İnterpola müraciət edilib.**

Qeyd edək ki, Ramil Əşrəfov dj fəaliyyəti ilə məşğul olub. O məşhur dj-in və qrupların Bakıda konsertlərini təşkil edib.

Mətbuatın yazdığına görə, 2013-cü ildə R. Əşrəfov məşhur dj Tiestonun Bakıda konsertini təşkil etmək adı ilə vətəndaşlara satdığı biletlərin pullarını mənimsəyib.

## Azərbaycana 20 kilo narkotik keçirmək istəyən iranlılar saxlanıldı

**Biləsuvar Gömrük İdarəsinin əməkdaşları 20 kiloqramdan artıq narkotik vasitənin Azərbaycan ərazisinə keçirilməsinin qarşısını alıb. Virtualaz.org Dövlət Gömrük Komitəsinin mətbuat xidmətinə istinadən bildirir ki, idarə əməkdaşları tərəfindən Füzuli rayonu ərazisində Su Elektrik Stansiyasının qarşısından keçən maşın yolunun kənarında qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilmiş narkotik vasitələri satmaq istəyən İran İslam Respublikası vətəndaşları Aşena Murtuza Cahangir oğlu, Xəlili Səccad Əyyub oğlu saxlanılıb və onlara məxsus iki ədəd idman çantasına baxış keçirilib.**

Baxış zamanı idman çantalarının birində polietilen paketlərdə qablaşdırılmış 10 ədəd dördbucaq formalı bağlamalarda, digər çantada isə eyni formalı 11 ədəd bağlamada, ümumi xalis çəkisi 20 kiloqram 390 qram olan narkotik vasitə - həşiş qətranı aşkar edilərək götürülüb.

## Türkdilli ölkələr turizm üzrə yeni qurum yaradır

**Türkdilli ölkələrin turizm sahəsi üzrə yeni qurumu yaradılır. Azərbaycan Turizm Assosiasiyası sədrinin müşaviri Müzəffər Ağakərimov "Trend"ə bildirib ki, İpək Yolu üzrə Biznes Assosiasiyası adlanan yeni qurum aprelin 21-22-də Türkiyənin İstanbul şəhərində "İpək Yolu" ilə əlaqədar keçiriləcək beynəlxalq tədbirdə təsis olunacaq.**

Assosiasiyaya Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan daxil olacaq. Gələcəkdə quruma Özbəkistan və Tacikistanın da qoşulması mümkündür.

M.Ağakərimovun sözlərinə görə, İpək Yolu üzrə Biznes Assosiasiyası türkdilli ölkələr arasında turizm sahəsindəki problemləri, viza məsələlərini müzakirə edəcək və onların həlli ilə bağlı dövlət qurumları qarşısında məsələ qaldıracaq, turizm şirkətlərinin səmərəli fəaliyyəti üçün əhəmiyyətli təkliflər irəli sürəcək, turizm qurumları arasında sıx əməkdaşlığı təmin edəcək.

## Şəmkirin polis rəisi işdən çıxarıldı

**Kəpəz TV (Region TV) xəbər verir ki, daxili işlər naziri, general-polkonik Ramil Usubovun əmri ilə Şəmkir Rayon Polis Şöbəsinin rəisi Şükür Mehtiyev vəzifəsindən azad edilərək nazirliyin sərəncamına götürülüb.**

Hələlik Şəmkir polisinə rəis təyin edilməyib. Bu vəzifənin icrası müvəqqəti olaraq rəis müavininə həvalə edilib.

## Türkiyənin baş naziri erməni müşavirini işdən çıxardı

**Türkiyənin baş naziri Əhməd Davudoğlunun erməni baş müşaviri Etyen Mahçupyan bu il martın 9-da tutduğu vəzifədən uzaqlaşdırılıb.**

"Report" xəbər verir ki, bu haqda "Hürriyet" məlumat yayıb.

Mahçupyan qəzetə müsahibəsində bildirib ki, yaş həddi ilə əlaqədar bu il martın 9-dan etibarən baş müşavir vəzifəsində çalışmır: "Mən indi fəxri müşavir kimi vəzifəmi icra edirəm. Bu məsələdə bir dəyişiklik olub: indi maaş almıram. Hazırda xaricdəyəm və fəaliyyətimi burada davam etdirirəm".

Xatırladaq ki, E.Mahçupyan 1950-ci il martın 9-da anadan olub. Ölkə qanunlarına əsasən, 65 yaşdan sonra dövlət məmuru təqaüdə çıxarılır.

Xatırladır ki, Etyen Mahçupyan bu yaxınlarda 1915-ci il hadisələrini "erməni soyqırımı" kimi tanıdığını bəyan etmişdi.

## Kürdəmirdə atları kəsib Bakıda mal əti adı ilə satan tutuldu

**Kürdəmir rayonunda qanunsuz olaraq at əti satan şəxs tutulub. El TV (Region TV) xəbər verir ki, rayon baytarlıq idarəsinin əməkdaşları tərəfindən aparılan reyd zamanı Xınıslı kənd sakini Anar Bağırovun həyətində iki atın kəsildiyi faktı aşkarlanıb. Onun həyətyanı sahəsinə baxış keçirilən zaman atların kəsilməsi və soyulması üçün xüsusi qurğular tapılıb.**

Qaraciyər serrozu xəstəsi olduğunu deyən Anar Bağırov kəsdiyi atları Bakı şəhərində mal əti adı ilə satmaq istədyini etiraf edib. Aşkar olunan ətlər bayratlıq idarəsinin əməkdaşları tərəfindən müsadirə olunaraq Respublika Baytarlıq Laboratoriyasına göndərilib.

Anar Bağırovun əvvəllər də bu işlə məşğul olub-olmadığını dəqiqləşdirmək üçün hüquq-mühafizə orqanlarında araşdırma aparılır.

## Növbəti sınaq imtahanı keçiriləcək

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün aprelin 19-da respublikanın 35 şəhər və rayonunda sınaq imtahanları keçirəcək.**

TQDK-nın mətbuat xidmətindən APA-ya verilən xəbərə görə, imtahanlar Bakı, Sumqayıt, Naxçıvan, Gəncə, Göygöl, Samux, Qazax, Tovuz, Şamaxı, Mingəçevir, Naftalan, Şəki, Qax, Oğuz, Ağcabədi, Göyçay, Zərdab, Ağdaş, Füzuli, Şirvan, Hacıqabul, Biləsuvar, Neftçala, Saatlı, Lənkəran, Lerik, Xaçmaz və Şabran şəhərlərində, eləcə də Naxçıvan Muxtar Respublikasının Babək, Kəngərli, Ordubad, Sədərək, Culfa, Şərur və Şahbuz rayonlarında ümumilikdə 67 binada təşkil olunacaq. İmtahanda iştirak etmək üçün yazılış internet vasitəsilə aparılıb və 48049 abituriyent qeydiyyatdan keçib.

İmtahan binalarına buraxılış yalnız abituriyentin özünün şəxsiyyət vəsiqəsi və imtahana buraxılış vərəqəsi əsasında həyata keçiriləcək. Başqasının (valideyninin, digər qohumunun və s.) şəxsiyyət vəsiqəsi ilə qeydiyyatdan keçmiş abituriyentlər imtahan binasına buraxılmayacaqlar.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Suriyadan qayıdan "cihadçı"lardan şok etiraflar

## 10 nəfərlik dəstə üzvünün məhkəməsində ilginc detallar üzə çıxır

**Aprelin 16-da Bakı Ağır Cinayətlər Məhkəməsində Suriyada döyüşməkdə ittiham olunan 10 nəfərlik dəstə üzvünün - Vilayət Həsənli, Malik Musayev, Samir Həşimov, Vasif Hacıyev, İlkin Babazadə, Mehman Balakişiyev, Azər Qəmbərov, Vüsal Bayramov, Vüqar Dursunəliyev, Elvin Dursunəliyevin cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

Prosesə hakim Ramella Allahverdiyeva sədrlik edib.

Məhkəmə prosesində təqsirləndirilən İlkin Babazadə ifadə verməkdən imtina edərək məhkəməni tanımadığını, yalnız şəriət qanunlarına uyğun şəkildə mühakimə olunmaq istədiyini açıqlayıb.

Təqsirləndirilən şəxsin ibtidai istintaqa verdiyi ifadəsi elan edilib. İ.Babazadə ifadəsində iki ildir ibadətlə məşğul olduğunu, Qəbələ rayonundakı məscidlərə getdiyini, özünə "Yəhya" dini adı götürdüyünü, Suriyada baş verən hadisələri internet vasitəsilə izlədiyini və cihad elan olunduqda ora getmək qərarına gəldiyini göstərib: "Bu məqsədlə "Sumqayıt camaatı"nın əmiri olan Aqil Hacıyevlə əlaqə saxladım. 3 oktyabr, 2013-cü ildə Türkiyənin Hatay vilayətinə getdim. Aqil Hacıyevin mənə verdiyi nömrəyə zəng vurdum. Hasan adlı şəxs məni sərhəddən qaçaq yolla Suriyaya keçirdi. Bunun müqabilində ona 50 dollar verdim.

Suriyaya keçəndən sonra Aqil Hacıyevin camaatına qoşuldum. Elvin Dursunəliyevi, Vilayət Həsənlini, Mehman Balakişiyevi, Vasif Hacıyevi orada görüb tanımışam. Onlar ora məndən əvvəl gəlmişdilər. Bizə fiziki və dini təlimlər keçirdilər. Heç bir döyüşlərdə iştirak etməmişəm. 5 mart, 2014-cü ildə "Cəbhətul əl-Nüsra" bizi əsir götürdü, ya onlarla birlikdə vuruşmağımızı, ya da ərazini tərk etməyimizi tələb etdilər. Mehmanla və digərləri ilə birlikdə bizi Türkiyə sərhədinə gətirdilər. Türkiyədən Azərbaycana deportasiya olunduq. Suriyada heç bir əməlimə görə məhkum olunmamışam".

**Təqsirləndirilən Malik Musayev isə digərlərindən fərqli olaraq məhkəmədə sərbəst ifadə verib. O, ifadəsində təqsirləndirilən şəxsləri tanımadığını, 2009-cu ildən ibadətlə məşğul olduğunu, Mədəniyyət və İncəsənət Universitetinin II kursunda təhsil aldığını, Suriyaya döyüşmək məqsədilə getmədiyini deyib:** "Ora getməkdə məqsədim dini rahat şəkildə yaşamaq idi. "Muaz" adlı bir nəfərlə internetdə tanış oldum. O, kömək edəcəyini dedi. Türkiyədə Hasan adlı şəxsin vasitəsilə sərhədi keçdim. Azərbaycan camaatı olan yerə gəldim, Aqil Hacıyevin camaatına qoşuldum. Mənim silahım olmayıb. Heç kimdə silah da görmədim. Təlimlərdə iştirak etmədim.



Orada terror qruplaşmaları var idi. Bizə onlara qoşulmağımızı, Bəşər Əsədə qarşı birlikdə vuruşmağımızı təklif etdilər. Razı olmadıq deyə bizi əsir götürdülər. On gün əsirlikdə olmuşam. Tabe olmadıq deyə bizi oradan Türkiyə sərhədinə gətirdilər. Türkiyədən deportasiya olunduq. Hava limanında bizi MTN qarşıladı. Bir ildir istintaq gedir.

Suriyada özbaşınalıqdır, orada dünyanın hər yerindən insanlar vardı. Uşaqların bəzilərini əsirlikdə tanımışam".

**Daha sonra təqsirləndirilən şəxs hakimin, dövlət ittihamçısının suallarını cavablandırıb. Hakimin "ora niyə getdin, məqsədin nə idi? Burada ibadət etməyə məhdudiyyət ki, yoxdur" sualına M.Musayev belə cavab verdi:** "Təhsilimi yarımçıq qoyub getmişdim, düşündüyümüz kimi olmadı, qayıtmaq istəsək də çətinlik çəkirdik. Çünki qayıtmaq çox çətin idi. Həm də biz Türkiyəyə yaxın sərhəddə idik. Orada döyüş getmirdi, əməliyyat keçirilimirdi. Mən o qədər də məlumatlı deyildim. Çox şeyi MTN-də başa saldılar".

**Bundan sonra təqsirləndirilən Vüsal Bayramovun istintaqa verdiyi ifadəsi elan edilib. V.Bayramov Şəkidəki məscidlərdə ibadətlə məşğul olduğunu, Suriyada cihad elan edildikdə kafirlərə qarşı vuruşmaq üçün ora getdiyini göstərib:** "Bu barədə həmyerlim - dini adı "Ömər" olan Vüqar Dursunəliyevə dedim. O, düz yolda olduğumu bildirdi. Ora özbaşına getmək olmazdı, hansısa qruplaşmaya qoşulmaq lazım idi.

28 yanvar, 2014-cü ildə getdim. 2500 dollarım vardı. Hasana 100 dollar verdim, sərhəddən keçdim. Dini adı "Abdul Məhəmməd" olan Aqil Hacıyevin camaatına qoşuldum. Heç bir döyüşdə iştirak etməmişəm. Orada kütləvi qətllər olduğunu və İslama dəyər verilmədiyini görüb Azərbaycana qayıtdım. Suriyada qaldığım 5 gün ərzində heç bir qanunsuz silahlı birləşmənin tərkibində iştirak etməmişəm".

Qeyd edək ki, Vüsal Bayramovun məhkəmə zalında olan atası Qabil Bayramov hakimdən ona söz verilməsini xahiş etdi.

**Əfqanıstan veteranı və I qrup əlil olduğunu deyən Qabil Bayramov oğlunu özü öz əli ilə MTN-ə təhvil verdiyini bildirdi:** "Martın 26-da televiziya ilə dedilər ki, ötən il aprel ayının 15-nə kimi Suriyadan qayıdanlar həbs olunmayacaqlar. Oğlumla əlaqə saxladım. Dedim, tez gəl, aprelin 15-nə kimi qayıt, əfv olunacaqsan".

**Təqsirləndirilən Samir Həşimovun ibtidai istintaqa verdiyi ifadəsi elan edildi. S.Həşimov ifadəsində 2003-cü ildən İslan dininin hənbəli təriqəti üzrə ibadət etdiyini, özünə "Abu Maryam" dini adı götürdüyünü göstərib:** "Bəşər Əsədin müsəlmanlara etdiyi zülmləri internet vasitəsilə izləyirdim. Suriyaya hicrət etmək istədim. İnternetdə cihadla bağlı videoların altında yazılan şərhlərdə Hasan adlı şəxslə tanış oldum, ona yazdım. Bəşər Əsədin zülmündən əziyyət çəkən müsəlmanlara köməklik etmək istəyirdim. Bu məqsədlə də 2013-cü ilin son ayında Türkiyəyə getdim, Hasanın vasitəsilə sərhədi keçdim.

Orada Nicat Aşurovun qrupuna qoşuldum. Nicatı 2007-ci ildən tanıyırdım. Mənə də döyüşə getmək təklif olundu. Bununla bağlı aramızda fikir ayrılığı yarandı. Ona görə də onlardan ayrılıb Aqil Hacıyevin camaatına qoşuldum. Çünki onlar dini yaşamaq üçün gəlmişdilər, öz məqsədləri üçün yox. Fiziki təlimlərdə və döyüşlərdə iştirak etməmişəm".

Təqsirləndirilən Vüqar Dursunəliyevin ibtidai istintaqa verdiyi ifadəsi elan olunub.

**İstintaqa verdiyi ifadəsində V.Dursunəliyev 2002-ci ildən sələfi təriqəti üzrə ibadətlə məşğul olduğunu, özünə "Ömər" dini adı götürdüyünü və "Şəki camaatının əmiri" seçildiyini göstərib:** "Bəşər Əsədin müsəlmanlara etdiyi zülmləri internetlə izləyirdim. 16 yaşlı oğlum Elvini çağırıb ona da göstərirdim. Ona başa salırdım ki, müsəlmanlara kömək etmək lazımdır. 2013-cü ildə belə qərara gəldim ki, 16 yaşlı oğlumu cihada göndərim. Şəkidən olan Tehran adlı şəxslə oğlum Elvini Türkiyəyə yolladım. Tehran elə bilirdi ki, oğlum Türkiyəyə işləməyə gedir. Elvinin cihada getdiyini bilmirdi.

2013-cü il, dekabrın 5-də İstanbul reysi ilə yola saldım. Oğlum heç bir döyüşdə olmayıb. Suriyada qrupların bir-biri ilə döyüşdüyünü eşidib əlaqə saxladım ki, Azərbaycana qayıtsın".

**Məhkəmə prosesi aprelin 23-nə kimi təxirə salındı.**



# Ziya Məmmədovla - Arif Əsgərovun 200 milyonluq şərikliyi - deşifrə!

## Azərbaycandan talan olunan pulların hesabına Rusiyada biznes qurub, istehsal etdikləri taxılı baha qiymətə ölkəmizə satırlar; "Tovuzlu Nəsrəddin" sadə biznesmendən böyük iş adamına necə çevrildi...

**Ziya Məmmədovla onun müavini, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sabiq rəisi Arif Əsgərovun 200 milyon manatlıq yatırımları haqda bilgilər ortaya çıxıb. "Yeni Müsavat" qəzeti mötəbər qaynaqlara əsasən məlumat verir ki, Azərbaycan dövlətində yüksək vəzifə tutan və maaşları üst-üstə 5 min manat da etməyən bu məmurlar Rusiyanın Stavropol vilayətinə 200 milyon manat həcmində yatırım qoyublar.**

**Mənbəmiz deyir:** "Proses bir neçə ildir ki, başlayıb. Azərbaycandan taladıqları pulların hesabına 1000 hektarlarla ərazi alıb, oraya taxıl əkdirən ikili son məhsulu baha qiymətə Azərbaycana, bir hissəsini isə İrana satdırır və bu sahədə monopoliyaya nəzarəti həyata keçirirlər. İndi onlar "parnik" biznesinə də keçiblər. Stavropol vilayətində ucsuz-bucaqsız "parnik"lər azərbaycanlı oliqarxlara məxsusdur. Avropa sanksiyalarından sonra kənd təsərrüfatı mallarının istehsalı aktuallaşdığı üçün Rusiya daxilindəki və xaricindəki iş adamları bu sektora yatırım qoymağa həvəsləniblər".

**Qaynağımız deyir ki, ikilinin kənd təsərrüfatı biznesinin üzərində nəzarəti isə Arif Əsgərovun yaxın adamı, Tovuzlu Nəsrəddin kimi tanınan şəxs həyata keçirir:** "Nəsrəddin uzun müddət həmin vilayətdə yaşayıb və öz zəhməti ilə dolanan sadə tacir olub, kənd təsərrüfatı malları ilə ticarət həyata keçirib. Lakin o, qəfildən zəngin bir iş adamına çevrildi. Bunun da səbəbi Bakıdakı iki oliqarxın Azərbaycandan çıxartdıqları pulları Stavropol əyalətində onun vasitəsi ilə işə cəlb etməsi olub. Ziya Məmmədovun ən yaxını hesab olunan Arif Əsgərov Nəsrəddin vasitəsilə işini qurmaq qərarı verəndən tacirin həyatı dəyişdi. İndi o, minlərlə hektar əkin-biçinə, iki oliqarxın kurort şəhərlərindəki tikinti işlərinə, yenicə tətbiq etdikləri "parnik" biznesinə nəzarəti həyata keçirir".

Qeyd edək ki, Ziya Məmmədov və Arif Əsgərovun Azərbaycanda, Türkiyədə, İngiltərədə, Çexiyada və bir sıra başqa ölkələrdə ortaq biznesləri var. Bu iki şəxs dövlət vəzifələrinin verdiyi mövqelərdən istifadə edərək, küllü miqdarda vəsait toplamış, eyni zamanda onları Azərbaycandan çıxardaraq, bir sıra ölkələrdə ən müxtəlif sahələr üzrə biznesə yatırmışlar. Nəqliyyat və dəmir yolu sektorunda bugünkü bərbad vəziyyətin əsas səbəbi də budur ki, onlara rəhbərlik edən bu iki şəxs ölkənin ən çox korrupsiyalaşmış məmurlarıdır.

Ümid edirik ki, hüquq-mühafizə orqanları bu məmurlar haqda bundan əvvəlki və indiki yazılarda qaldırılan iddiaları yoxlamaq təşəbbüsü göstərəcək.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 81 (6109) 17 aprel 2015

# Putin dünyanı maraqlandıran suallara cavab verdi

## Rusiya prezidenti canlı yayımda ölkə iqtisadiyyatının dirçəlməsinə 2 il lazım olacağını dedi; Qərbə yenə hədə gələn Kreml başçısı “Onlara vassal lazımdır” söylədi, ABŞ-a şərt qoydu, Nemtsovla aralarındakı münasibətdən söz açdı...

**Rusiya prezidenti Vladimir Putin dünən canlı efirdə ölkə başçısı olaraq 13-cü dəfə mətbuat konfransı keçirib. 4 saatlıq mətbuat konfransı zamanı o, ölkə və qlobal gündəmdəki ən aktual məsələlərə münasibət bildirib, vətəndaşların, yerli və əcnəbi jurnalistlərin suallarını cavablandırıb.**



Ölkədəki iqtisadi-sosial duruma, sanksiyalar və onların nəticələrinin aradan qaldırılması mümkünlüyünə toxunan Kreml başçısı vəziyyətin çətin olduğunu etiraf edib. Rusiya iqtisadiyyatının dirçəlməsi üçün ən azı iki il tələb oluna biləcəyini qeyd edib: “Rublun möhkəmlənməsi, bazarın artması, eləcə də digər məqamlara baxanda düşünürəm ki, bu, bəlkə də tez ola bilər. Təxminən 2 il”.

**Kreml rəhbəri bu xüsusda Rusiyanın sanksiyalardan öz inkişafı üçün istifadə etməli olduğunu xüsusi vurğulayıb:** “Bu sanksiyalara nə qədər dözməli olacağımıza gəldikdə isə, mən tamam başqa cür deyərdim: nəinki dözməliyik, bu vəziyyətdən istifadə etməli, yeni bazarlara çıxmalıyıq”. Prezident daha sonra xalqa ürək verməkdə davam edərək deyib: “Rusiya, hər halda, İran deyil, ona görə ki, bizim iqtisadiyyatımız daha böyükdür və daha çox diversifikasiya olunub”.

**Moskvanın Qərblə münasibətlərinin normallaşdırılması ilə bağlı səslənən suala cavabında Putin bu əməkdaşlıqda ölkəsinin maraqlı olduğunu bildirsə də, yaranmış böhranlı vəziyyətə görə ənənəvi olaraq ABŞ-ı ittiham edib:** “Qərblə deqradasiyaya uğramış münasibətləri Rusiya korlamayıb. Qərb, ABŞ-la münasibətlərin qaydaya salınmasının əsas şərti Rusiya və onun maraqlarına hörmət etməkdir. Ötən bağlantıda da demişdim ki, bəzi super dövlətlər özlərini dünyanın yeganə mərkəzi hesab edirlər. Onlara vassal lazımdır, müttəfiq yox. Mən ABŞ-ı nəzərdə tuturam. Rusiya isə bu münasibətlər sistemində nəinki dəstək verə, hətta mövcud ola bilməz. Biz hər zaman münasibətlərə açığıq. Fakt odur ki, 90-cı illərdə biz tam açıldıq və qarşı tərəfdən də eyni münasibəti gözləyirdik. Yadınızdadırsa, Boris Yeltsin Yuqoslaviya ilə bağlı mövqeyini açıqlayanda, təzyiqlərlə üzləşdi. Bu o demək deyil ki, biz təcrid



olunmaq istəyirik, biz əməkdaşlıq etmək istəyirik, hazırıq və əməkdaşlıq edəcəyik”.

Putin Rusiyaya qarşı tətbiq olunan sanksiyaların effektsiz olduğunu da söyləyib.

**Avrasiya layihələrinə toxunan Rusiya prezidenti yalnız xoş məram güddüklərini iddia edib (“Trend”):** “Biz Avrasiya İqtisadi İttifaqı çərçivəsində qonşu Qazaxıstan və Belarusla əlaqələri inkişaf etdiririk. Bu birliklərin məqsədi ondan ibarətdir ki, bu ölkələrdə yaşayan insanlar daha yaxşı yaşasınlar. Artıq Ermənistan və Qırğızıstanla bu cür əlaqələrimiz qurulur. Bizim imperiya yaratmaq məqsədimiz yoxdur. Bu, normal və təbii inteqrasiya prosesidir. Bütün dünya inteqrasiya yolu ilə gedir”.

**Canlı efirdə prezident daha xoşagəlməz suallarla üzləşib. Məsələn, rusiyalı siyasətçi İrina Xakamada ona müxalifət lideri Boris Nemtsovun qətlə yetirilməsi ilə bağlı sual ünvanlayıb. Putin bildirib ki, Nemtsovun qatilləri qətldən bir neçə saat sonra bəlli olub. O, Nemtsovla aralarında olan münasibətdən də söz açıb:** “Biz onunla dostluq etmişik. O, mənə, hakimiyyətə qarşı qatı müxalifətçi olub. Ancaq buna baxmayaraq, bizim dostluq əlaqələrimiz olub. Onun ölümü faciəlidir və biabırçı bir hadisədir. Qətldən bir-iki gün sonra qətlin sifarişçiləri də müstəntiqlərə məlum idi və onların həbs edilməsi üçün işlər aparılırdı. Bu əməyə görə onlara minnətdarlığımı bildirirəm. Onlar operativ olaraq bir neçə kanal vasitəsilə qətl haqda bütün detalları öyrəndilər”.

**Putin həmçinin ölkə və beynəlxalq gündəmdəki başqa aktual mövzularda səslənmiş suallara aydınlıq gətirib. Maraqlıdır ki, o, aprelin 24-də İrəvana səfər edib-etməyəcəyi haqda heç nə deməyib.**

❑ **Siyasət şöbəsi**




# “Rusiya ilə Azərbaycan arasında heç bir problem yoxdur”

**“Rusiya ilə Azərbaycan arasında hərbi-texniki sahədə mövcud olan əməkdaşlığı müsbət qiymətləndirirəm”. Bunu APA-nın Moskva müxbirinə açıqlamasında Rusiya Federasiyası müdafiə nazirinin müavini Anatoli Antonov deyib. O bildirib ki, iki ölkə arasında münasibətlər yüksək səviyyədədir: “Biz qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsinin tərəfdarıyıq. Rusiya hərbi-texniki sahədə əməkdaşlıq yolunda heç bir problem görmür”.**

Dünən keçirilən IV Moskva Beynəlxalq Təhlükəsizlik Konfransında danışan nazir müavini Azərbaycanın bu konfransda iştirakını yüksək qiymətləndirib: “Konfransa 80-ə yaxın ölkədən nümayəndə heyətləri qatılıb. O cümlədən, NATO ölkələrindən. Konfrans iştirakçıları "İslam Dövləti" terrorçu qruplaşmasının yaratdığı təhlükələr, eləcə də Avropada təhlükəsizlik mexanizmlərini müzakirə ediblər. Azərbaycan da artıq dördüncü dəfədir keçirilən beynəlxalq təhlükəsizlik konfransında iştirak edir".

# Əfv xəbərləri təsdiqini tapmaqdadır

## Mehman Əliyev: “Avropa Oyunları ərəfəsində sülh elan etmək olar”
## Çingiz Qənizadə: “Kiməsə azadlıq bəxş edilirsə...”

**May ayında əfv sərəncamının veriləcəyi barədə yayılan xəbərlər öz təsdiqini tapmaqdadır. Avropa Oyunları ərəfəsində imzalanacaq əfvdə bir çox siyasi məhbusların azad olunacağı gözlənilir. Hər halda, hər keçən gün ümidləri artırmaqdadır.**

Ekspertlər hesab edirlər ki, Avropa Oyunları ərəfəsində əfv verilsə, ölkəmiz adına müsbət nəticələr verəcək. İqtidar da bu önəmli yarışmaya siyasi məhbuslarla getməyin mənfi tərəflərini yaxşı anlayır. Bütün bu ehtimallar may ayından olan gözləntiləri artırır.

**“Turan” İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev** hesab edir ki, Avropa Oyunları ərəfəsində siyasi məhbuslar problemi yarışmaya ciddi xələl gətirə bilər: “Əfv olacağını gözləyirəm. Açığı deyim ki, məndə olan məlumata görə, belə bir əfv hazırlanır. İqtidar daha çox öz imicindən narahatdır. Siyasi məhbus problemi beynəlxalq medianın gündəmində ola bilir - oyunlar zamanı. Ölkəmizdəki siyasi məhbus problemi yarışmaya xələl gətirə bilər. İqtidar bundan narahatdır. Hesab edirəm ki, əsassız deyil. Məndə olan məlumata görə, beynəlxalq medialar bu məsələyə böyük önəm verir. Bununla bağlı kifayət qədər mövzu, reportajlar olacaq. Bu qaçılmazdır və oyunların başlanması ərəfəsində baş verə, xaricilərin sayına ciddi təsir edə bilər. Necə ki, "Eurovision" vaxtı bu, baş verdi. Turistlərin sayı da azala bilər. Maraq kəskin açağı düşər, ölkə tənqidlərlə üzləşər. Bunlar real vəziyyətdir. Son dövrlərdə biz artıq təpkilərin şahidi oluruq. Bunlar güclənə bilər və ölkəmiz üçün yaxşı heç nə vəd etmir".

Qeyd edək ki, əfv olarsa, Leyla Yunus, Arif Yunus, İntiqam Əliyev, Rəsul Cəfərov, Xədicə İsmayıl kimi məhbusların azadlığa buraxılması mümkünsüz görünür. Çünki bu şəxslərin hələ ya məhkəmələri, ya da istintaqları gedir.

**Mehman Əliyev bu məsələyə də toxundu:** “Qeyd etdiyiniz şəxslərin Avropa Oyunları zamanı həbsdə olması təbii ki, mənfi təsir edəcək. Yaxşı olardı ki, bu problemlər sıfır vəziyyətə gətirilsin. Bütövlükdə hazırda ölkədə durum qənaətbəxş deyil. İqtidarın əsas mövzusu iqtisadiyyatdır. Çünki biz artıq böhrana qədəm qoymuşuq. Böhran getdikcə dərinləşəcək, uzunmüddətli olacağı gözlənilir. Xüsusi addımlar atılmalıdır. İqtisadi islahatlar, siyasi islahatlardan yan keçə bilməz”.

**“Turan” rəhbəri may ayından olan gözləntilərindən də danışdı:** “Məhbusların bir hissəsi buraxılacaq. Yeni bir kursun, siyasətin elan edilməsi ilə, bu problem həll oluna bilər. Biz artıq xeyli vaxt itirmişik. Açığı deyim, 10 il itirmişik. 2004-cü ildən başlayan siyasət uğurla nəticələnmədi. Yenidən hər şeyi başlamaq lazımdır. Buna imkan var. İnanmıram ki, hazırda hakimiyyət buna hazırdır. Onsuz da buna gedəcəklər. Məncə, bu ilin ortalarında islahatlar başlayacaq. Avropa Oyunları ərəfəsində sülh elan etmək olar. Bu kifayət qədər gözəl zəmindir”.

**Hüquq müdafiəçisi, deputat Çingiz Qənizadə əfv barədə xəbərsiz olduğunu söylədi:** “Əfv sərəncamı prezidentin hüququdur. Mən, sadəcə, hüquq müdafiəçisi kimi müraciət edə bilərəm. Belə bir əfvi biz də arzulayırıq. Amma hər şeyin parlamentə çıxarılması düzgün deyil. Bununla prezidentin qanuni hüququna təzyiq etmiş oluruq. Mən Hüquq Müdafiə Təşkilatlarının Monitorinq Qrupundayam. Zaman-zaman Əfv Komissiyasına müraciətlərimiz olub. Əgər may ayında cənab prezident belə bir addım atarsa, siyahıda kimin olmasından asılı olmayaraq, dəstəkləyəcəyik. Çünki hüquq müdafiəçisi ölkədə adı hallanan 5-10 nəfərin hüququ ilə məşğul deyil. Əfv edilən 50-100 məhbus da Azərbaycan vətəndaşıdır. Kiməsə azadlıq bəxş edilirsə, alqışlamalıyıq”.

❑ **Cavanşir ABBASLI**

Yeni MÜSAVAT
N 81 (6109) 17 aprel 2015

**Roma papasının ardınca Avropa Parlamenti də saxta soyqırım məsələsində analoji mövqe sərgilədi. Təbii ki, dərhal da Türkiyə hakimiyyətindən sərt reaksiyalar gəldi. Azərbaycan da öz cavabını verdi. Xarici işlər naziri qərarı pisləyən bəyanat yaydı. Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Avropa Parlamentinin qərarını antimüsəlman və antitürk ovqatından qaynaqlandığını bildirdi.**



# Türkiyəyə qarşı "erməni kartı"

## ABŞ Konqresinə təqdim olunan sənəd qəbul olunarsa, Türkiyəyə qarşı təzminat iddiaları gündəmə gələ bilər...

Bu qərara reaksiyanın necə olmasından asılı olmayaraq bu qətnamələrin Türkiyə üçün fəsadları olacağı gözlənilir. Məsələ burasındadır ki, ermənilər illərdir bu yöndə kampaniya başladıblar və uzun müddət məqsədli şəkildə öz hədəflərinə doğru irəliləyiblər. İndi isə uzun illər ört-basdır edilən "erməni minaları" partlamağa başlayıb.

O da məlum olub ki, "erməni soyqırımı" məsələsi ABŞ Konqresində müzakirələrə çıxarıla bilər. Konqresin Nümayəndələr Palatasının üzvü Adam Schiff Ermənistanın nyus.am saytına açıqlamasında bir neçə konqresmenlə birlikdə "Erməni soyqırımı ədalət və həqiqət layihəsi" adlı sənəd hazırlayaraq Konqresə təqdim edib. Konqresmen bildirib ki, əvvəlki illərdən fərqli olaraq bu il layihənin qəbul olunmasına ümid çoxdur.

Gələn bilgilərə görə, Konqresin "erməni məsələsi"ni müzakirəyə çıxarmağa hazırlaşması Türkiyə hökumətini hərəkətə keçirib. Aprelin 16-da ABŞ-a səfər edən baş nazirin müavini Əli Babacanın Amerikada "soyqırım" məsələsi ilə bağlı lobbi işi aparacağı və ABŞ rəsmiləri ilə danışıqlar aparıb Konqresin erməni iddialarını qəbul etməməsinə çalışacağı bildirilir.

Lakin hazırda Türkiyə hökuməti ilə Vaşinqton arasında münasibətlər soyuqdur və əvvəlki illərdə olduğu kimi, Ankaranın Vaşinqtona təsir imkanları qalmayıb. Çünki ilk növbədə hökumətlər arasında münasibətlər soyuyub, ikincisi isə AKP hökumətinin uzun illər Türkiyənin müttəfiqi olan yəhudi lobbisi ilə münasibətləri pis olduğu üçün indi Vaşinqtonda dəstəyi xeyli dərəcədə azdır. Üstəlik, Türkiyənin yürütdüyü siyasət Vaşinqtonda bəyənilmir və ABŞ hakimiyyətinin bu vasitə ilə Türkiyəyə zərbə vurmaq istəməsi də gözardı edilmir.

Bu baxımdan bir müddət xarici işlər naziri işləmiş, "erməni məsələsi" ilə bağlı, Sürix protokolları prosesini aparmış Əli Babacanın Beynəlxalq Valyuta Fondunun toplantısında iştirak etmək üçün getdiyi Vaşinqtonda ciddi nəticəyə nail olması real görünmür.

Məsələ burasındadır ki, "erməni soyqırımı" qanun şəklində qəbul olunarsa, o zaman ermənilərin ABŞ məhkəmələrində Türkiyəyə qarşı təzminat iddiaları qaldırmaq üçün hüquqi əsasları yarana bilər. Çünki ABŞ qanunları yerli məhkəmələrdə başqa ölkəyə qarşı iddia qaldırmaq hüququ verir. Ekspertlərə görə, ermənilər Türkiyəyə qarşı təzminat iddiası da qaldıra bilərlər.

Ötən əsrin əvvəllərində Osmanlı dövlətində "The New York Life Insurance", "Equitable Life of New York", "AXA", "Munich Re", "La Compagnie L'union", "La Federale Insurance Company" adlı sığorta şirkətləri fəaliyyət göstərib. Osmanlının erməni sakinlərinin məhz bu şirkətlərdə sığorta olunduğu bildirilir. Əgər ermənilər bu şirkətlərə qarşı təzminat iddiaları qaldırsa, o zaman bu şirkətlər də qarşılıqlı olaraq Türkiyə dövlətinə qarşı, daha doğrusu, həmin vaxt köçürülən və ya iddia edildiyi kimi, öldürülən ailələrə məxsus əmlakı tələb edəcəklər. Bu isə illərlə vaxt tələb edən, qalmaqallı və yorucu məhkəmə prosesləri deməkdir. Aydın məsələdir ki, bu məhkəmə iddiaları və "erməni soyqırımı" qanunları ilk növbədə Türkiyə dövlətinə qarşı siyasi təzyiq vasitəsi kimi istifadə olunacaq.

Hələlik Türkiyə dövlətinin bu iddialara və ehtimal olunan təhlükəyə qarşı hansı planlarının olması ilə bağlı məlumat verilmir. Ankaranın Qərbin "erməni kartı" üzərindən oyununa qarşı Türkiyənin hansı cavabı verəcəyini isə yaxın günlərə qədər gözləmək lazım olacaq.

❑ KƏNAN

# Xədicə İsmayıla mükafat verildi

## Tural Mustafayevin imtina məktubuna isə prokurorluğun münasibəti hələ bəlli deyil...

**Araşdırmaçı jurnalist Xədicə İsmayıl beynəlxalq PEN mükafatına layiq görülüb. Xədicə İsmayıla PEN/Barbara Goldsmith Yazmaq Azadlığı mükafatı veriləcək. Onlarla idman yazarı PEN-ə qoşularaq Xədicəni ilk Avropa Oyunları ərəfəsində azadlığa buraxmağa çağırır.**



Xədicə İsmayıl

PEN Amerika Mərkəzi bildirir ki, mükafat bu il mayın 5-də Nyu Yorkda Amerika Təbiət Tarixi Muzeyində təqdim olunacaq.

Xədicə İsmayıl Azərbaycanda tənqidçi jurnalist kimi tanınır. O, ötən il dekabrın 5-də keçmiş həmkarını intihar həddinə çatdırma ittihamı ilə həbs olunub.

PEN Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Thomas Bach-a məktub yazaraq İsmayılın ilk Avropa Oyunları ərəfəsində azadlığa buraxılmasına çağırıb. Həmin çağırışa Amerikanın tanınmış idman jurnalistləri -Bob Costas (NBC News), Frank Deford (Sports Illustrated), Steve Fainaru və Mark Fainaru-Wada (ESPN) və David Remnick (The New Yorker) da qoşulub.

Məktub müəllifləri BOK-u çağırır ki, Azərbaycana təzyiq göstərsin, "Olimpiya Xartiyasının ruhuna əməl olunsun və Xədicə İsmayıl və həmkarları bəraət alsın".

Xədicə İsmayıla qarşı daha 4 ittiham da irəli sürülüb və 12 ilədək həbs cəzası ala bilər.

PEN/Barbara Goldsmith Yazmaq Azadlığı mükafatı hər il işinə görə həbsə atılan və təqib olunan şəxslərə verilir. 1987-ci ildən bəri mükafata layiq görülən zaman həbsdə olan 39 yazardan 35-i azadlığa çıxıb. Xədicənin adından mükafatı azərbaycanlı jurnalist və dostu Emin Milli qəbul edəcək.

PEN "Ədəbi Xidmət", "İfadə Azadlığı Cəsarəti", "Fəxri Naşir" mükafatları da təqdim edir. PEN Amerika Mərkəzi 1922-ci ildə yaradılıb, 4 min yazıçı üzvü var. Qurumun məqsəd dünyada ifadə azadlığına maneələri aradan qaldırmaqdır.

Jurnalist ona bu mükafatın verilməsindən xəbərsizdir. Bundan başqa, onun həbsinə səbəb olmuş jurnalist Tural Mustafayevin öz şikayətindən əl çəkməsi ilə bağlı baş prokurora ünvanladığı müraciətdən isə hələ heç bir xəbər yoxdur. Respublika Prokurorluğu mətbuat xidmətinin rəhbəri Eldar Sultanov əməkdaşımıza bildirib ki, qeyd olunan faktla bağlı mətbuat xidmətində hər hansı xəbər yoxdur.

Müsahibimiz "bu məktub Xədicə İsmayılın üzərindən bir ittihamın götürülməsi ilə nəticələnə bilərmi" sualımızı isə ümumiyyətlə cavablandırmayıb.

Xatırladaq ki, aprel ayının 21-də Bakı Apelyasiya Məhkəməsində hakim Qail Məmmədovun sədrliyi ilə keçiriləcək prosesdə X.İsmayılın Cinayət Məcəlləsinin 147-ci maddəsi üzrə təqsirli bilinərək 2500 AZN həcmində cərimələnməsinə dair apelyasiya şikayətinə yenidən baxılacaq.

❑ SEVİNC

# "Tarixi ədalətsizlikdir, qərəzlidir və həqiqəti əks etdirmir"

## Avropa Parlamentinin erməniprəst qətnaməsinə Bakıdan sərt reaksiyalar; iqtidar və müxalifət eyni səngərdə

**Aprelin 15-də Avropa Parlamenti 1915-ci il hadisələrinin "soyqırım" kimi tanınmasını nəzərdə tutan layihəni qəbul edib. Layihəyə əsasən Türkiyə 1915-ci il hadisələrini "soyqırım" olaraq tanımalı və arxivləri açmalıdır. Avropa Parlamentinin qondarma "erməni soyqırımı"nın 100 illiyi ərəfəsində belə bir addım atması qardaş Türkiyə ilə yanaşı, Azərbaycanda da haqlı narazılıqlara və kəskin etirazlara səbəb olub.**



Türkiyə və Azərbaycana qarşı yönələn bu basqıya, erməniprəst mövqeyə münasibətdə ölkəmizin iqtidar və müxalifətinin mövqeyi eynidir.

**Müsavat Partiyasının başqanı Arif Hacılı** özünün facebook hesabında qərara münasibətini aşağıdakı kimi açıqlayıb: "Avropa Parlamentinin "erməni soyqırımı" ilə bağlı qərarı elmi, tarixi baxımdan yanlış, siyasi baxımdan çox zərərlidir. Bu qərar Avropa Birliyinin nüfuzuna sarsıdıcı zərbədir. Ermənistanın bugünkü işğalçılıq siyasətinə dolayısı ilə haqq qazandırmaqla yanaşı, Qarabağ probleminin diplomatik üsullarla həlli yolunda daha bir maneə yaradır. İndiki həssas məqamda konfessiyalararası etimadı azaldır. Avtoritar rejimlərin Qərbin ikili standartlar tətbiq etdiyi barədə təbliğatına əsas verir. Avropa Parlamentinin bu qərarı həm də təhlükəsiz dünya, dinc yanaşı yaşama, tolerantlıq kimi zəruri dəyərlərin inkişafına zərbədir".

"Avropa Parlamentinin qondarma "erməni soyqırımı" haqqında qəbul etdiyi qətnamə siyasi baxımdan acı təəssüf hissi doğurduğu kimi hüquqi baxımdan da absurddur. Hamı bilir ki, avropalı deputatların bu qərarı qərəzli və tarixi faktlara söykənmədiyi üçün heç bir təsir gücünə malik deyil". "Trend"in məlumatına görə, bunu jurnalistlərə Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri, deputat **Azay Quliyev** deyib.

**O bildirib ki, Avroparlamentin bəzi üzvləri tarixə ədalətli və obyektiv baxış sərgiləmək məqsədilə bu qətnaməni qəbul etdiklərini deyirlər:** "O zaman onlardan soruşmaq lazımdır: 23 il əvvəl hamının gözü qarşısında baş vermiş və aydın, dəqiq faktlarla sübuta yetirilmiş, eyni zamanda Ermənistan prezidenti Serj Sarkisyan tərəfindən etiraf edilmiş Xocalı soyqırımı haqqında Avropa Parlamenti nə vaxt qətnamə qəbul edəcək? Və yaxud BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi və icrası məcburi olan 4 qətnamənin icrasını təmin etməyən işğalçı Ermənistana qarşı nə zaman siyasi və ya iqtisadi sanksiyalar qəbul ediləcək? Əgər Avropa Parlamenti az da olsa ədalətlilik və obyektivlik prinsipinə hörmət edirsə, yaxın zamanlarda dediyim qətnamələri qəbul edərək özünün qərəzli olmadığını sübut etməlidir. Görək Avropa Parlamenti belə bir cəsarət nümayiş etdirəcəkmi? İnanmaq çox çətindir".

**Ümid Partiyası Avropa Parlamentində qondarma "erməni soyqırımı" ilə bağlı qəbul edilmiş qətnamə ilə əlaqədar bəyanat yayıb. Partiya hesab edir ki, Avroparlamentin qətnaməsi tarixi ədalətsizlikdir, qərəzlidir və həqiqəti əks etdirmir:** "Bunu təbliğ və təşviq edən ölkələrin çoxu zamanında hadisələrin baş verməsində böyük xidmətləri və günahları olmuş dövlətlərdir. 1915-ci ildə Türkiyədə yaşayan erməniləri xəyanətə sövq etməklə həmin dövlətlər türklərin də kütləvi şəkildə qırğınına səbəb olmuşlar. Təəssüflər olsun ki, Avropa Parlamenti erməni daşnaklarının 1918-ci ilin martında Bakıda və Azərbaycanın digər şəhərlərində törədikləri qanlı qırğınlara, Azərbaycan ərazilərinin işğalına, işğal olunmuş ərazilərdə, habelə indi Ermənistan adlanan ərazidə, öz dədə-baba yurdlarında azərbaycanlılara qarşı ermənilərin törətdikləri vəhşiliklərə, qanlı etnik təmizləməyə, əsasən də yaxın tarixdə baş verən Xocalı soyqırımına hələ də münasibət bildirməyib".

Partiya bəyan edib ki, Ermənistanın əsassız iddialarına dəstək verən bu qətnamə regionda gərginliyin, dini və milli ədavətin artmasına səbəb olur, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinə maneçilik törədir, beynəlxalq qurumların obyektivliyini şübhə altına alır, onlara olan inamı sarsıdır.

**Milli Məclis sədrinin müavini, Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Bahar Muradova modern.az-a açıqlamasında deyib ki, belə qətnamənin qəbulu Ermənistanın yürütdüyü təcavüzkar siyasəti stimullaşdırır:** "Beynəlxalq ictimaiyyət Ermənistanın işğalçılıq siyasətindən, bunun bölgəyə faciə gətirməsindən xəbərdar olsa da, məsələyə etiraz etmir. Amma 100 il bundan əvvəl baş vermiş və tarixçilərin tədqiqat obyekti olmalı olan bir "hadisə" haqqında düzgün olmayan siyasi qərar verirlər". O söyləyib ki, Avroparlamentin məlum qətnaməsi çox ağılsız bir qərardır.

❑ Cavid TURAN

YENİ MÜSAVAT
N 81 (6109) 17 aprel 2015

# "Onlar heç nəyə nail ola bilməyəcəklər"

## "Azərbaycana qarşı qarayaxma kampaniyaları heç bir effekt verməyəcək"

**"Hamı bilir ki, Azərbaycanda bu gün söz, mətbuat, məlumat azadlığının, insan hüquqlarının, demokratiyanın, siyasi azadlıqların vəziyyəti heç bir dünya ölkəsindən geri qalmır".**

Bu sözləri Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov birinci Avropa Oyunları ərəfəsində ölkəmizlə bağlı aparılan qarayaxma kampaniyasına münasibət bildirərkən jurnalistlərə açıqlamasında deyib.

**Əli Həsənov** bu gün dünyada təzahür edən antiislam, antitürk siyasəti, hadisələrə ikili standartlar çərçivəsində yanaşma siyasətinin təəssüf doğurduğunu vurğulayaraq deyib: "Eyni zamanda erməni lobbisinin dəstəyi ilə bəzi Avropa siyasətçilərinin, beynəlxalq və humanitar, o cümlədən beynəlxalq hüquq-müdafiə təşkilatlarının fəaliyyətində də eyni təzahürlər müşahidə olunur. Bu təzahürlərdəki anti-Azərbaycan meyli də eyni amillərlə bağlıdır. Azərbaycan cəmiyyəti bunu çox gözəl bilir ki, ölkəmizlə bağlı formalaşdırılmağa cəhd göstərilən bu rəylərin, fikirlərin heç bir əsası yoxdur. Bunlar, sadəcə olaraq, Azərbaycan xalqının, dövlətinin uğurlarını, o cümlədən bizim dünyaya nümayiş etdirmək istədiyimiz dəyərlərin effektivliyini azaltmaq məqsədi daşıyır. Onlar heç nəyə nail ola bilməyəcəklər. Biz real həqiqətləri həm özümüz bilirik, həm də dünya ictimaiyyətinə çatdırmaq üçün kifayət qədər imkanlara malikik. Azərbaycan 20 ildə bugünkü inkişafa dünyanın gözü qarşısında nail olub. Azərbaycanın dünya mədəniyyətinə, siyasətinə, iqtisadiyyatına verdiyi töhfələr göz qabağındadır. Bunu heç kim inkar edə bilməz. Heç kim Azərbaycanda olmayan bir şeyi bizim üstümüzə ata bilməz".

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycanda bütün hüquqlar və azadlıqlar təmin olunub. Bu cür qarayaxma kampaniyaları heç bir effekt verməyəcək.

# AMİP-də sədr seçkisi keçiriləcək

## Milli istiqlalçıların sədri dəyişə bilər

**Azərbaycan Milli İstiqlal Partiyası (AMIP) qurultaya hazırlaşır. Qurultay keçirilməsi barədə partiyanın Mərkəzi Şurasının son iclasında qərar qəbul edilib. AMİP baş katibi Arzuxan Əlizadənin rəhbərliyi ilə Qurultayın Keçirilməsi üzrə Təşkilat Komitəsi formalaşdırılıb.**

AMİP-dən əldə etdiyimiz xəbərə görə, qurultayın parlament seçkisindən əvvəl keçirilməsi nəzərdə tutulub. Dəqiq vaxtla bağlı isə Siyasi Şurada müzakirələr olacaq. Artıq qurultay öncəsi rayon təşkilatlarında konfranslara start verilib. Qurultayın keçiriləcəyi gün konfransların yekunlaşmasından asılıdır. Qurultayda bütün seçkili qurumlar yenidən formalaşacaq. AMİP Nizamnaməsinə müvafiq olaraq sədr seçiləcək, qurultaylararası dövrdə partiyanın əsas ali orqanı olan Mərkəzi Şuraya seçkilər keçiriləcək. Mərkəzi Şuranın tərkibi 75 nəfər üzv, 25 nəfər namizəddən ibarətdir. Bir sözlə, qurultayda sədrlə yanaşı, 100 nəfər Mərkəzi Şuraya, 9 nəfər isə Mərkəzi İntizam Komissiyasına üzv seçiləcək. Qurultaydan dərhal sonra keçirilən Mərkəzi Şuranın iclasında sədrin təqdimatı ilə baş katibin namizədliyi səsə qoyulacaq. Baş katib seçiləndən sonra partiyanın müxtəlif sahələrinə rəhbərlik edən 5 sahə üzrə katibin təyinatını verəcək. Mərkəzi Şurada bu təyinatlar seçki yolu ilə reallaşır.

AMİP-dəki mənbənin dediyinə görə, partiyaya sədrlik uğrunda mübarizənin ciddi keçəcəyi gözlənilir. Sədrliyə hazırkı sədr Yusif Bağırzadə ilə yanaşı digər bir neçə namizədin də olacağı ehtimalı böyükdür. Mənbənin dediyinə görə, baş katib Arzuxan Əlizadənin AMİP-sədri seçilmək şansları yüksəkdir. Arzuxan Əlizadənin qurultaya hazırlıq üzrə təşkilat komitəsinə sədr seçilməsinə diqqəti cəlb edən mənbəmizin sözlərinə görə, digər partiyalarda, o cümlədən AMİP-də adətən qurultaya hazırlıq üzrə təşkilat komitəsinin sədri partiyanın sədri olan şəxs seçilir. AMİP-in növbəti qurultayı ilə bağlı yaradılan təşkilat komitəsinə Yusif Bağırzadənin deyil, Arzuxan Əlizadənin rəhbərlik etməsi təsadüfi sayılmamalıdır. Bu fakt da AMİP-in növbəti sədrinin Arzuxan Əlizadə olacağını söyləməyə əsas verir. AMİP-in qurucusu Etibar Məmmədovun bu məsələdə mövqeyinin həlledici olduğuna da mənbəmiz diqqət çəkdi. O qeyd etdi ki, Etibar Məmmədovun həm Yusif Bağırzadəyə, həm də Arzuxan Əlizadəyə münasibəti normaldır. Odur ki, E.Məmmədovun onlardan hansının sədr postunu tutmasına isti yanaşdığını indidən dəqiq söyləmək çətindir.

❑ E.SEYİDAĞA




# Rəsul Cəfərova 6 il 6 ay həbs cəzası verildi

## Hüquq müdafiəçisi 3 il dövlət orqanlarında vəzifə tutmaq səlahiyyətindən məhrum edildi

**Aprelin 16-da Bakı Ağır Cinayətlər Məhkəməsində İnsan Haqları Klubunun sədri Rəsul Cəfərovun son məhkəmə prosesi keçirildi. Son proses olduğuna görə məhkəmə binası önünə çoxlu sayda insan toplaşmışdı. Ölkəmizin tanınmış simaları, xarici ölkə təşkilatları və səfirliklərinin nümayəndələri də prosesdə iştirak edirdilər.**

Məhkəmə vaxtından bir saat gec başladı. Əvvəlki prosesdə hakimlər qərar qəbul etmək üçün müşavirəyə getdiklərinə görə, hakim prosesə ittiham hökmünü elan etməsi ilə start verdi. Hökm qərarı 50 səhifə həcmində olduğuna görə Rəsul Cəfərov proses iştirakçılarının ayaqüstə qaldıqlarından narahat olduğunu bildirərək, son hissəsinin oxunmasını məhkəmədən xahiş etdi. Lakin hakim qəbul etmədi. Qərarı əvvəldən-axıra qədər oxudu. İttiham hökmünün oxunması bir saat çəkdi.

Hökm elan olunarkən, məlum oldu ki, zərərçəkmişlər və şahidlərin təqsirləndirilən şəxsin xeyrinə məhkəmədə verdikləri ifadələrin heç biri nəzərə alınmayıb. Məhkəmə heyəti bunu həmin şəxslərin R.Cəfərova yaxınlığı ilə əlaqələndirdi. Nicat İmranlı və Əhməd Heybətovun zərərçəkmiş statusundan imtina ilə bağlı yazılı müraciətləri də qeydə alınmadı. Məhkəmə onları yenidən zərərçəkmiş kimi tanıdı. İbtidai istintaqda verilən ifadələr əsas kimi götürüldü. Bundan əlavə, vicdan məhbusu İlkin Rüstəmzadənin ailəsinə R.Cəfərovun layihə çərçivəsində etdiyi 2410 manat yardım da sübut kimi qəbul edilmədi. Vicdan məhbusunun anasının təsdiqedici məktubunun da reallıqdan uzaq olduğu bildirildi.

Müdafiə tərəfinin yox, ittiham tərəfinin məhkəməyə təqdim etdiyi ekspert rəyi əsas götürüldü.

Hökmdə təqsirləndirilən şəxsə qarşı irəli sürülən ittihamların tam olaraq, sübuta yetirildiyi, cinayətin qəsdən törədildiyi qeyd olunmuşdu.

Hakim hökmü elan etdikcə, zaldakı proses iştirakçıları öz etirazlarını uca səslə ifadə edirdilər.

Qərarın elan olunmasının son mərhələsində hakim 5 dəqiqəlik fasilə elan etdi.

**Fasilə zamanı Rəsul Cəfərov media nümayəndələrinə qısa müsahibə verdi:** "50 % şərti azadlığa çıxacağıma, 50% həbsə gedəcəyimə inanıram. Əgər şərti azadlıq versələr, qismən də olsa, ədalət bərpa olunacaq. Həbs olarsa, bunu birbaşa siyasi sifariş hesab edirəm. Qeyd edim ki, ev dustaqlığına buraxılmağımla bağlı vəsatətimiz qəbul oluna bilərdi. Çünki heç vaxt ölkədən qaçmaq niyyətim olmayıb".

Fasilədən sonra E.İsmayılov ittiham hökmünün son hissəsini elan etdi. Hökmdə R.Cəfərovun ilk məhkumluğu, yaşadığı ərazi üzrə müsbət xarakterizə olunması, məhkəmə zamanı müsbət davranışı, gəncliyi, ağır və yüngül halların nəzərə alındığı qeyd olunurdu. Qərara əsasən, o, 3 il dövlət orqanlarında vəzifə tutmaq səlahiyyətindən məhrum edilirdi.

Rəsul Cəfərova qarşı irəli sürülən 179 -cu maddə üzrə 5 il, 192-1, 213-1, 308-2, 313-1 il müddətinə həbs cəzalar tətbiq olundu. Verilən cəzalar qismən toplanılmaqla, onun barəsində qəti olaraq, 6 il 6 ay müddətinə azadlıqdan məhrumetmə cəzası seçildi.

R.Cəfərov hökmdən sonra uca səslə qərarın sifariş əsasında verildiyini, ona qarşı qondarma ittihamların irəli sürüldüyünü bildirdi. O, proseslərində iştirak edən hər kəsə təşəkkürünü bildirdi.

Məhkəmədən sonra R.Cəfərovun vəkili və məhkəmə qərarı haqqında mətbuata açıqlama verdi.

**Rəsul Cəfərovun babası sona qədər məhkəmədən ədalət gözlədiyini söylədi:** "Hökm mənə çox pis təsir etdi. Sona qədər ədalətli qərar olacağına inanırdım. Amma olmadı".

**R.Cəfərovun qardaşı Sənan Cəfərov:** "Hər kəs gördü ki, məhkəmə kiminsə sifarişini yerinə yetirdi. Əvvəldən bilirdim ki, şərti cəza olmayacaq. Çünki siyasi iş idi. Açığı, bu qədər ağır cəza gözləmirdim. Neynəmək olar, sifariş belə verilib. Hökmdən apelyasiya şikayəti verəcəyik. Fəxr edirəm ki, Rəsulun qardaşıyam".

**Hüquq müdafiəçisinin vəkili Fariz Namazlı da hökmə münasibət bildirdi:** "Qərarı tamamilə qanunsuz hesab edirik. Hesab edirik ki, kifayət qədər məhkəməyə sübutlar təqdim etmişdik. Rəsul Cəfərovun heç bir təqsiri yoxdur. Hətta zərərçəkmiş şəxslər də məhkəmədə bunu bildirdilər. Təəssüf ki, məhkəməyə təqdim etdiyimiz sübutlara qiymət vermədi. İstintaqın topladığı sübutlar tamam qanunsuz idi. Məhkəmə bu sübutlara əsaslanıb hökm çıxardı. Hökmdən şikayət verəcəyik".

**R.Cəfərovun hüququ nümayəndəsi Günay İsmayılova hökmün qanun pozuntuları altında verildiyini qeyd etdi:** "Rəsul bəyin özü də qeyd etdi ki, bu siyasi sifarişdir. Hesab edirəm ki, ən azından indi ədalətli qərar çıxarılacağına ümid edən insanların inamı tamamilə qırıldı. Bu gedişlə ədalətsiz məhkəmələr davam edəcək. Şərti cəza ilə qismən də olsa, ədaləti bərpa edə bilərdilər. Doğrudur, Rəsul bəyə qarşı irəli sürülən ittihamların heç bir əsası yoxdur. Ədalətsiz məhkəmələrimiz, ədalətsiz qərarlar çıxarmaqda davam edirlər".

Qeyd edək ki, dövlət ittihamçısı R.Cəfərovun 9 il azadlıqdan məhrum olunmasını istəmişdi. Rəsul Cəfərov 2014-cü il avqustun 2-də həbs edilib və ona qarşı Cinayət Məcəlləsinin 192 (qanunsuz sahibkarlıq), 213 (vergidən yayınma) və 308(vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri üzrə ittiham irəli sürülüb. Dekabrın 12-də Rəsul Cəfərova qarşı CM-in 179.3.2(mənimsəmə) və 313(vəzifə saxtakarlığı) maddələri üzrə əlavə ittihamlar irəli sürülüb. Yerli və beynəlxalq ictimaiyyət Rəsul Cəfərova qarşı ittihamların saxta olduğu, onun hüquq müdafiəçisi kimi fəaliyyətinə görə siyasi sifarişlə həbs olunduğu qənaətindədir. "Amnesty International" təşkilatı onu vicdan məhbusu kimi tanıyıb.



### Rəsul Cəfərov: "Siyasi sifariş hesab edirəm..."

❑ Cavanşir ABBASLI
Fotolar müəllifindir

# Söyün Sadıxov Rusiya prezidentinə müraciət hazırlayır

## “AzerRos” prezidenti: “Öz millətini satan Abbas Abbasov mənə maraqlı deyil artıq”

**Aprelin 14-də Rusiya Azərbaycanlılarının Federal Milli-Mədəni Muxtariyyəti- “AzerRos”un böyük səbirsizliklə gözlənilən növbədənkənar VI qurultayı keçirilib. Bu “birləşdirici qurultay” “AzerRos”u parçalamış, Azərbaycan baş nazirinin sabiq birinci müavini Abbas Abbasov üçün “son şans” hesab olunurdu. Çünki diaspora üzvləri A.Abbasovu qurultaya dəvət edərək tədbirə gəlməyəcəyi təqdirdə siyasətdən getməyi təklif etmişdilər. A.Abbasov isə qurultaya gəlməyib və bununla da özünü qurumun işindən birdəfəlik kənarda qoyub.**

Aprelin 14-də keçirilən qurultayda quruma yeni prezident, Federal Şuranın sədri və üzvləri seçilib. Ulyanovskdakı Azərbaycan diasporunun rəhbəri İslam Hüseynov və digər diaspor üzvləri tərəfindən qurumun keçmiş prezidenti Söyün Sadıxovun yenidən prezidentliyə namizədliyi təklif olunub. Qalib Ağayev isə Söyün Sadıxova rəqib olub. Səsvermədə Söyün Sadıxov qalib çıxıb və “AzerRos” FMMM-in yeni prezidenti seçilib.

Federal Şuranın sədri vəzifəsinə Nizami Bəşirov seçilib. Rusiyanın regionlarından və Moskvadan ümumilikdə 49 nəfər Federal Şuranın üzvü seçilib.

**Qurumun prezidenti seçilmiş Söyün Sadıxov çıxış edərək “AzerRos”un bundan sonra heç kəsin şəxsi mənafeyinə qulluq etməyəcəyini söyləyib:** “Abbas Abbasovu müəyyən qüvvələr idarə edir, o, bu oyunlarda ”peşka"dır. dar adamlar deyilik və milli maraqlar naminə birləşmək üçün insanların səhvlərini bağışlamağı bacarırıq. Mən əminəm ki, birləşdirici qurultay ”AzerRos" üçün yeni bir tarixi səhifə açacaq, Rusiya və Azərbaycan xalqlarının mənafeyinə xidmət edəcək".

**S.Sadıxov A.Abbasovu kəskin ittiham edib. O deyib ki, A.Abbasov ya çox axmaq, ya da namərd adamdır:** “Amma mən üçüncü varianta inanmağa meylliyəm. O, anti-Azərbaycan qüvvələrinə xidmət edir, bu hətta erməni lobbisi də ola bilər. Çünki ola bilməz ki, uzun müddət yüksək vəzifədə işləmiş bir şəxs bu cür səhvlər buraxaraq anti-Azərbaycan mövqe tutsun, Rusiyada yaşayan azərbaycanlıların əleyhinə getsin. Bunları gördükdən sonra mən anladım ki, Abbas Abbasov kimilərinin əsl sifətini açmayanadək yaranmış problemləri həll etmək mümkün deyil”.


Söyün Sadıxov

O, Azərbaycanla Rusiya arasında münasibətlərə xələl gətirməyə çalışır. Mən buna biganə qala bilməzdim".

Qurultayda çıxış edən Azərbaycanın Rusiyadakı səfirinin müavini Qüdsi Osmanov Rusiyadakı Azərbaycan diasporunun vahid olmasının, eyni məqsədə xidmət etməsinin, Azərbaycanla Rusiya arasında münasibətlərin möhkəmləndirilməsinə töhfə verməsinin vacibliyini qeyd edib.

**Yeni seçilmiş prezident S.Sadıxov minval.az-a müsahibəsində deyib ki, Mehriban Sadıqova, Cəmil Sadıqbəyov, Vaqif Adıgözəlov, Tamilla Şıxməmmədova, Sərdar Abdullayev və Fayaz Paşayev birləşdirici qurultaya buraxdıqları səhvlərdən utanaraq gəlməyiblər:** “Onlar Abbas Abbasovdan aldıqları pulu xalqın maraqlarından üstün tutdular. Amma biz qəddar... 

**S.Sadıxov deyib ki, onlarda olan məlumatlara əsasən deyə bilərlər ki, A.Abbasov Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu ilə bir qayıqda yer alır. S.Sadıxovun sözlərinə görə, 17 fevralda qurultaya Rusiya hüquq-mühafizə orqanlarının müdaxiləsi birbaşa P.Bülbüloğlunun informasiyaları əsasında baş verib:** “Axı necə ola bilər ki, diasporanın 350-400 nəfər üzvü Abbas Abbasova tabe olmadıqları üçün səfirin göstərişi ilə təzyiqə məruz qalsınlar? Biz bu informasiyaya əvvəl inanmadıq. Amma fevralın 20-də diasporanın 100 fəal üzvünün dağıstanlı qoluzorluların hücumuna məruz qalanda da səfir səsini çıxarmadı, hətta Dağıstan prezidentindən fəxri diplom da aldı. 14 aprel qurultayında isə rusiyalı məmurlarla söhbətdən belə məlum oldu ki, səfir bütün gücü ilə qurultaya mane olmağa çalışıb. Azərbaycanlılar bilmək istəyir ki, səfir Polad Bülbüloğlu Rusiyada Azərbaycan prezidentinin təmsil edir, yoxsa Abbas Abbasovun çirkin oyunlarının iştirakçısıdır?”

**“AzerRos” prezidenti moderator.az-a deyib ki, artıq Abbas Abbasov onun üçün maraqlı deyil, amma o qurultayda üzləşdikləri problemlə bağlı Rusiya prezidenti Putinə müraciət etmək niyyətindədir:** “Rusiya Federasiyasının Ədliyyə Nazirliyinin milli muxtariyyət və xarici agent haqqında qanunu pozması haqqında RF-nin prezidentinə müraciətimdə yazacağam. Ona görə ki, Ədliyyə Nazirliyi Prezident Administrasiyasının hansısa nümayəndəsinə və Federal Təhlükəsizlik Xidmətinin (FTX) əməkdaşlarına istinad edir. Mənə Abbas Abbasov maraqlı deyil artıq, çünki mən dedim ki, öz millətini satan birisidir və o, azərbaycanlıların toplantısına FTX və polis göndərməklə özünü ifşa etdi. Prezident Administrasiyasının və FTX-nin hərəkətləri azsaylı xalqların hüquqlarının pozulmasına gətirib çıxarır və bu da sonda Azərbaycan ictimaiyyəti tərəfindən Rusiyaya qarşı etimadsızlıq mühitinə gətirib çıxara bilər”.

❑ **Xəbər xidməti**



# Gizirimiz şəhid oldu

## Şahmurad Əlizadə atasının yanında torpağa tapşırıldı

**Azərbaycan Ordusu hərbçisini itirib. Lent.az-ın Müdafiə Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, erməni silahlı bölmələrinin atəşkəs rejimini pozması nəticəsində xidməti vəzifələrini yerinə yetirən Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu, gizir Əlizadə Şahmurad Hilal oğlu şəhid olub.**

Şahmurad Əlizadənin cənazəsi dəfn olunmaq üçün doğulduğu Biləsuvar şəhərinə gətirilib.

ANS PRESS-in bölgə müxbirinin verdiyi məlumata görə, cəbhənin Ağdam istiqamətində düşmən gülləsinə tuş gələn 23 yaşlı Şahmurad 2 ildən artıq idi ki, ön cəhbədə vətənin müdafiəsində dayanmışdı. Doğma ocağına şəhid kimi dönən gizirin cənazəsi rayon ictimaiyyəti, xidmət etdiyi hərbi hissənin, doğmalarının iştirakı və üçrəngli Azərbaycan bayrağının müşayiəti ilə kənd qəbiristanlığına aparılıb. Şəhid dünyadan vaxtsız köçmüş atasının yanında torpağa tapşırılıb.

Mərasimdə iştirak edən Müdafiə Nazirliyinin rəsmiləri xidməti vəzifəsini yerinə yetirərkən həlak olan Şahmurad Əlizadənin xatirəsinin daim anılacağını,vətən yolunda şəhidin bundan sonrakı nəsillər üçün də müqəddəs borc olduğunu bildiriblər.

Şəhidin doğmaları da vətənə layiqli, gənc nəslə örnək oğul böyütdüklərinə görə fəxr etdiklərini dilə gətiriblər. Azərbaycan bayrağı şəhidin qardaşlarına təqdim edilib.

# Siyasətin məzhəbi olmur



**Azər RƏŞİDOĞLU**

**Azərbaycan Səudiyyə Ərəbistanı ilə yaxınlaşır. Neftin ucuzlaşması, manatın ölməsi fonunda ərəb kapitalının Azərbaycana cəlb edilməsi kritik nöqtədən çıxış yolları axtarmaq cəhdi kimi də dəyərləndirilə bilər. Odur ki, rəsmi Bakının ərəb dünyasına üz tutması iqtisadi maraqlar baxımından dəyərləndirilə bilər.**

Lakin Səudiyyə ilə yaxınlıq Tehranı qıcıqlandırır. Ərəb kapitalı öz yerində, amma Ər Riyad tərəfdaş kimi elə də cəlbedici deyil. Hamının totalitar ölkə kimi səciyyələndirdiyi İran da Səudiyyə Ərəbistanından daha demokratikdir. Sözsüz ki, burada söhbət “demokratiya” anlayışının ənənəvi məna tutumundan getmir. Amma yenə də, İranda ən azından klerikal ideologiya çərçivəsində də olsa, Səudiyyə Ərəbistanı ilə müqayisədə müəyyən siyasi azadlıqlar təmin edilir. Bu baxımdan, Azərbaycan Səudiyyə ilə müqayisədə xeyli demokratikdir. Lakin hər iki ölkə Qərbin dostları siyahısında yer tuturlar. Yəni, Ər Riyad və Bakı yaxınlaşması Qərbin geostrateji maraqlarına zidd deyil. Burada din amili axtarmaq da yersizdir. Qərb nə İranla düşmənçilik, nə də Səudiyyə Ərəbistanı ilə dostluq edərkən islam amilini nəzərə almır. O cümlədən də Azərbaycan xarici siyasətini din amili üzərində qurmur.

Azərbaycan bu gün şiə İranla deyil, sələfi Səudiyyə ilə yaxınlaşır. Göründüyü kimi eyni məzhəbin daşıyıcıları olan İran və Azərbaycan arasında gərginlik səngimək bilmir. Dini dəyərlər Azərbaycan-İran münasibətlərində heç bir problem yarada bilməz. İranın da şiə Azərbaycandan fərqli olaraq, sünnü Orta Asiya ilə heç bir problemi yoxdur. Rəsmi Tehran Latın Amerikasındakı İslamın mütləq saydığı dəyərləri, o cümlədən, ailə dəyərlərini rədd edən aşırı solçu rejimləri ən yaxın dostları sayır. Azərbaycan və İran diplomatiyasında din amilinə heç bir dəyər verilmədiyi üçün rəsmi Bakı ilə Tehran arasında yaranan problemlərin gerçək mənbəyi islamla bağlı ola bilməz.

İki ölkə münasibətlərinə təsir edən başlıca amil milli-dövləti maraqlardır. Etiraf etmək lazımdır ki, sərt idarəçiliyi olan iqtidarlar milli-dövləti maraqlara daha bağlıdırlar. Əslində sərt idarəçilikdə ideologiyaya belə bu milli-dövləti maraqların gerçəkləşdirilməsi üçün bir vasitə kimi baxılır. Odur ki, İranın din amilini qabartması da sadəcə olaraq siyasi gedişdir. İran müsəlman torpaqlarını işğal etdiyi üçün İsraili düşmən elan edir. Amma Qarabağ problemindən söhbət düşəndə, rəsmi Tehranın Ermənistanın Azərbaycan, yəni şiə müsəlman torpaqlarını işğal etməsini etiraf etməsinə belə baxmayaraq, bu münaqişənin dinc yolla həllinə çağırır. Bu azmış kimi, müsəlman torpaqlarını işğal etmiş dövlətlə dostluq münasibətləri qurur.

İranın ərəb dünyasında dostları o qədər də çox deyil. Ərəblər İranı dost hesab etmirlər. Hətta Fələstin İranı dost saymır. Amma İran İsrailə qarşı mübarizədə düşmən ərəb dövlətləri ilə əməkdaşlıq etməyə hazırdır.

Ölkəmizə qarşı rəsmi Tehranın fərqli münasibəti yalnız və yalnız Azərbaycanın xarici siyasəti ilə İranın milli-dövləti maraqları arasında hətta uzunmüddətli perspektivdə belə hər hansı uyumun yaranmayacağına olan əminlikdən doğur. Yəni, İran rejimi Azərbaycanı bir müstəqil, dost dövlət kimi qazanmağı mümkün saymır və bu haqda düşünmür. Bu tezisdən daha bir nəticə çıxarmaq olar.

Müstəqil Azərbaycanın mövcudluğu İranın milli-dövləti maraqlarına ümumiyyətlə cavab vermir.

İran-Azərbaycan münasibətlərində həlli çox müşkül, hətta bölgədəki indiki geosiyasi şərtlər daxilində qeyri-mümkündür.

Unutmaq olmaz ki, Azərbaycanın daha bir qonşusu - Rusiya müstəqilliyimiz üçün təhlükə mənbəyi olaraq qalır. Kremllə münasibətlərimizdə ciddi problemlər mövcuddur. Moskva Azərbaycanı işğalla hədələyir. Azərbaycan onun müstəqilliyini qəbul etmək istəməyən iki ölkə arasında qalıb. Zaman və şərait özü Bakını Avroatlantik məkana inteqrasiyaya vadar edir...

YENİ MÜSAVAT
N 81 (6109) 17 aprel 2015



# Elmi-dini komparativistika

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud akademiya humanitarı ictimaidən nə üçün ayırmışdır

**Azərbaycan Milli Elmlər Akademiyasında islahatlar sürətlə davam edir. Alimlərimiz vətənimizdə baş verən və verməyən hadisələri analiz edir, ürək yanğısı ilə münasibətlər ortaya qoyurlar. Misal üçün, Rafiq Əliyevin Lütfi Zadə ilə birgə hazırladığı "Hədislərimizdə elmi-texniki tərəqqinin inikası və mələyin uçma sürətinin hesablanmasında qeyri-səlis məntiq" traktatı hazırda Foksford Universitetində tədris edilir.**

Dünən isə Qafqaz Müsəlmanları İdarəsi AMEA-nın baş ofisində "İslam maarifçiliyi və müasir dövr" mövzusunda beynəlxalq konfrans qayırmışdır. Dünyanın heç bir başqa ölkəsində akademiya adı daşıyan qurumda mollalar iclas qayırmır, çünki molla ilə alimin yerləri konkret ayrılmışdır. Biri məsciddə oturur, o biri laboratoriyada. Bizdə isə oturmağa laboratoriya yoxdur, o üzdən AMEA-nı vaxtaşırı müxtəlif məqsədlər üçün kirayə verirlər. Hətta istəsən AMEA Rəyasət Heyətinin binasında sünnət toyu da keçirmək olar. İraq olsun, elmi institutların binaları isə mərhumların üç, yeddi, qırx mərasimlərinə açıqdır.

Yeri gəlmişkən, Bakıdakı adını çəkdiyimiz konfransda Səudiyyədən arvad əti yeməyin mümkünlüyü haqda fətva verən məşhur alim də iştirak etmişdir.

Bəlkə siz elə bilirsiniz bu yuxarıdakı xəbərləri mən özümdən uydururam, hardansa qoltuğumun altından çıxarıb yazıram. Qətiyyən. Məndə belə fantaziya qabiliyyəti hardaydı... Həyat bizim fantaziyalarımızdan qat-qat qabaqda şütüyür. Xəbərlər hamısı da gündəlik xəbər lentlərindən götürülmüşdür, inanmayan həzrəti-Google vasitəsi ilə özü yoxlaya bilər.

Misal üçün, elə həmin Google vasitəsiylə tapa bilərsiniz: 11 apreldə AzərTAc xəbər verir ki, AMEA Şəki Regional Mərkəzi... xeyir-dualar kitabı buraxmışdır. Yeni bu kitabda konkret olaraq "Allah səni saxlasın" duasının insan həyatına təsiri böyükdür, yoxsa "Allah alimlərimizin başını qoyub ayağına daş salmasın" duasının - belə şeyləri elmi analiz, deduksiya, induksiya üsulları ilə, o cümlədən kvant fizikası, nanotexnologiyalarla öyrənirlər. Hazırda duaların heyvanlar üzərində təsiri yoxlanır, yaxşı olsa insanlara da tətbiq ediləcəkdir.

Yaxud, yenə zalım axtarış robotu qabağımıza belənçik bir xəbər çıxarır: "Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin beynəlxalq əlaqələr və komparativistika şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru Şəfəq Əlibəyli Hindistanda elmi ezamiyyətdə olub.

Muzeydən AzərTAc-a bildiriblər ki, azərbaycanlı alim Guvahati Universitetində keçirilən "Ölməz sufi şairlərinin - Sədi, Hafiz, Xəyyam və Mövlananın müdriklik və düşüncələrinin XXI əsrdə aktuallığı" mövzusunda beynəlxalq elmi konfransda iştirak edib.

Tədbirdə Ş.Əlibəylinin "Mövlana şeirində təzad daşıyan irfani istilahların poetik dialektikası" mövzusunda məruzəsi maraqla qarşılanıb".

Gör nə qədər vacib mövzudur... Hazırda başqa alimlərimiz də Pakistanda "Mövlana şeirində təzad daşıyan irfani istilahların komparativistik-realist metafizikası" mövzusunda məruzə edir. Hardasa Təbriz yaxınlığında görüşüb birlikdə "Mövlana şeirindən penoplast üzlüklə örtülən Xətai sakinlərinin ruhi həyəcanlarına administrativ təsiri və qətiyyətin təntənəsi" mövzusunu təqdim edəcəklər.

Dünən AMEA Rəyasət Heyəti daha bir mühüm qərar vermişdir, indiyə qədər birgə fəaliyyət göstərən Humanitar və İctimai Elmlər Bölməsi ortadan parçalanıb Humanitar və İctimai Elmlər Bölmələri edilmişdir. Dəhşətdir. Buna bəlkə Nobel sülh mükafatı verildi. Məncə islahata başlamışkən Mövlana və komparativistika bölmələrini də ayırmaq, bundan başqa xeyir və duanı ayrı bölmələr etmək yaxşı olardı. Həmçinin şeyxlə Hacı Sabirin də AMEA-dan ayrılması elmimizə xidmət edərdi.

Ancaq fikir versən bunun özü də simvolikdir: akademiya işarə vurur ki, bizim ölkədə humanitar olanlar ictimai deyil, ictimai məsələlər isə qeyri-humanitar üsullarla çözülür. Ay sizi xətakar dissidentlər...

## 5 paytaxtın gözü Obamada: "soyqırım" deyəcəkmi?



# Qərb Türkiyəni Rusiyanın müttəfiqinə çevirir

### ABŞ prezidenti Roma Papasının, Avropa Parlamentinin səhvini təkrarlayarsa, Türkiyə-Qərb münasibətləri uzun müddətə korlana, Ankara geridönməz şəkildə Moskvaya yaxınlaşa bilər; Ağ Ev başçısı bu prosesi durduracaqmı? Məntiqin diktəsi "hə" deyir, çünki...

**Roma papasının (ona "ermənilərin Papası", "xaç atası" da deyirlər) ardınca Avropa Parlamenti Türkiyə ilə bağlı ədalətsiz və ən çox da Qərbin ziyanına işləyəcək yanlış addım atdı: qurum Vatikan kimi vaxtilə uydurma erməni soyqırımı məsələsində qəbul elədiyi qərarı (1987) təzədən təkrarladı. Bununla da olduqca həssas bir dövrdə ocağa yağ tökdü, türk-erməni münasibətlərinin normallaşması şanslarını sıfırladı.**

Məsələ də ondadır ki, Roma papası məlum bəyanatı, Avropa Parlamenti isə 24 aprelin Avropa Birliyi ölkələrində "erməni soyqırımı" günü kimi qeyd edilməsi haqda qərarı ilə Qərbə "ayı xidməti" göstərmiş oldular. Hər halda, bu kimi qərarlardan sonra qardaş ölkənin Avropa Birliyinə can atacağını gözləmək absurd olardı.

Bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın hələ qərardan öncə verdiyi mesaj bir daha təsdiqləyir. Ərdoğan bildirib ki, Avroparlament nə qərar çıxarsa, "bir qulağımızdan girər, digərindən çıxar, çünki Türkiyə üzərində soyqırımın kölgəsi belə yoxdur".

**Türkiyə Xarici İşlər Nazirliyi də qərara kəskin reaksiya sərgiləyib. Orada deyilir ki, Avroparlament ciddi xətaya yol verib:** "Avropa Parlamenti qəbul etdiyi bu qərarla, bir zamanlar da beynəlxalq hüquqa zidd olaraq və səlahiyyət həddini aşaraq həyata keçirdiyi səhvi təkrarlayıb".

Öz növbəsində Türkiyənin Avropa naziri Volkan Bozkır qərarın tarixi gerçəkliklərlə üst-üstə düşmədiyini bəyan edərək vurğulayıb ki, "belə qərarlar Türkiyə üçün yox kimidir". "Parlamentlərin vəzifəsi tarix yazmaq deyil. 1915-ci il hadisələrinə "soyqırımı" demək iftiradan başqa bir şey deyil" - əlavə edib nazir.

*****

Türkiyə rəsmilərinin "ermənilərin Xaç atası"nın "soyqırım" bəyanatına və Avropa Parlamentinin qərarına sərt reaksiyaları rəsmi Ankaranın Avropa siyasətinə ciddi düzəlişlər edəcəyinin, üzünü bir az da çox Şərqə, Çinə, Rusiyaya tutacağının anonsu sayıla bilər. Çətin ki, Qərbin böyük bir regionda yeganə və əvəzolunmaz müsəlman tərəfdaşının, NATO üzrə müttəfiqinin bu şəkildə incidilərək itələnməsi Qərbin, Avropa Birliyinin maraqlarına cavab versin.

Ərdoğanın açıqlamalarından da görünür ki, Qərb xeyli dərəcədə Rusiyanın maraqlarına işləyən, Ankara-Moskva müttəfiqliyini bir az da möhkəmləndirəcək bu cür qərarların altını çox tezliklə çəkməyə başlayacaq.

*****

Papadan, Avropa Birliyindən sonra kim qaldı indi? Əlbəttə ki, ABŞ prezidenti Barak Obama. 5 paytaxtın *(Ankara, Bakı, Moskva, İrəvan, Brüssel)* gözü indi Obamaya dikilib. Bəzi Qərb şərhçilərinə görə, Papa və Avroparlamentin mövqeyi Amerika prezidentini də analoji addıma həvəsləndirə bilər. Biləcəkmi? Ağ Ev başçısı Türkiyəni zorla Rusiyanın müttəfiqinə çevirmək prosesini durduracaqmı?

Böyük ehtimalla, hə. Çünki əks halda, bu, **əvvəla**, Qərb üçün siyasi intihar, Türkiyə kimi mühüm bir strateji tərəfdaşı qeyri-müəyyən müddətə itirmək, türk-erməni münasibətlərini normallaşdırmaq ümidlərini basdırmaq, Kremlin Güney Qafqazda möhkəmlənmək imkanlarını artırmaq demək olardı.

**İkincisi**, Obama ona görə "soyqırım" deməyəcək ki, Vatikan və Avropa Parlamentindən fərqli olaraq, ABŞ saxta soyqırımı heç vaxt dövlət səviyyəsində tanımayıb. Dövlət başçısı kimi prezident dövlətin mövqeyinə sayğısızlıq edə bilməz.

**Üçüncüsü**, Amerika bu kimi məsələlərdə bir qayda olaraq Avropadan fərqli mövqe sərgiləməklə böyük divident götürməyi bacarır və yenə də belə bir fürsət yaranıb; Vaşinqton yaşananlar fonunda Türkiyənin gözündə xeyli yüksəlmək şansına malikdir ki, bu da ən birinci elə Amerikanın mənafeyinə uyğundur.

**Dördüncüsü**, son hadisələrə reaksiyalar göstərdi ki, Türkiyədə saxta soyqırım məsələsində iqtidar-müxalifət, toplum söhbəti yoxdur. Hamı eyni mövqedədir. Yeni tanınma təxribatları ilə qarşıdakı parlament seçkilərində hakim AKP-nin səslərini azaltmaq mümkün deyil. Əksinə - türk seçicisi açığa AKP-ni daha güclü dəstəkləyə bilər.

**Beşincisi**, Türkiyəni incitmək avtomatik şəkildə Amerikanın digər strateji tərəfdaşı Azərbaycanı da incitmək, Bakını Rusiyaya tərəf itələmək demək olardı.

**Altıncısı**, Obama artıq üçüncü müddətə prezidentliyə namizəd olmayacaq və onun üçün amerikalı erməni seçicilərinin səsləri önəm kəsb eləmir.

Ən əsası, "soyqırım" sözündən imtinanı Rusiya ilə "soyuq savaş"ın məntiqi, sanksiyalar məsələsində Türkiyəni Rusiyadan aralamaq imperativi diktə edir.

Qısası, Obama "genosid" deməyəcək. Bəlkə də yeni soyuq savaş olmasaydı, ABŞ prezidenti buna gedərdi. Ancaq indi - yox!.. Bu mənada ermənilərin bəxti gətirməyib...

*****

Son olaylardan ən çox uduşda olan tərəf kimi isə Rusiya görünür. Heç şübhə yox ki, Vatikanın və Brüsselin qərarları ən çox Moskvada məmnunluq yaradıb. Obama da eyni səhvi təkrarlasa, Kremlin 24 apreli Qərb üzərində çox mühüm siyasi və mənəvi qələbə günü kimi qeyd etməyə haqqı çatacaq.

Bu arada bəlli olub ki, Rusiya öz vədini tutaraq Çanaqqala mərasimlərində yüksək səviyyədə təmsil olunmaq qərarı verib. Rusiyanı Dövlət Dumasının spikeri, ölkənin 4-cü şəxsi Sergey Narışkin təmsil edəcək.

Narışkin variantı barədə "Yeni Müsavat" yazmışdı. Kremlin 24 apreldə İrəvana göndərəcəyi rəsmin şəxsin isə baş nazir Dmitri Medvedyev olacağını da qeyd eləmişik. Roma Papası və Avroparlamentin qərarlarından sonra bu ehtimal güclənib: Putin İrəvana getməməklə, Türkiyəni incitməməklə onu indi özünə daha da yaxınlaşdırmış olacaq.

Əfsus ki, Çanaqqala törəninə ABŞ-dan yüksək səviyyəli qonaqların iştirak etməyəcəyi ehtimalı var. Bakıdakı səfir Robert Sekuta bunun səbəbini ölkəsinin 1-ci Dünya müharibəsində iştirak etməməsi ilə izah dib. Hərçənd, onu da əlavə edib ki, yekun qərarı Ağ Ev başçısı verəcək. Bu qərar "soyqırım" məsələsindəki mövqe ilə sinxronluq təşkil edib onu tamamlayacaqmı?

**Bircə həftə gözləyək.**

**❑ Siyasət şöbəsi**

# İqtidardan Avropa Parlamentinin qərarına sərt reaksiya



**“Avropa Parlamentinin qondarma ”erməni soyqırımı" ilə bağlı qəbul etdiyi qətnamə Avropa Parlamenti tarixində ən biabırçı, heç bir həqiqəti əks etdirməyən, I Dünya müharibəsinin real tarixini təhrif edən, ədalətsiz, xüsusi məqsəd daşıyan və siyasiləşmiş bir qərardır. Bu qətnamənin antimüsəlman və antitürk ovqatından qaynaqlandığı şübhə doğurmur".**

## XİN: ““Erməni soyqırımı” ifadəsinin işlədilməsi tarixin saxtalaşdırılması və onun siyasi məqsədlər üçün təfsir olunması cəhdləridir”

Bunu jurnalistlərə açıqlamasında Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov söyləyib.

**Ə.Həsənovun sözlərinə görə, bu qərarın qəbul edilməsi onu göstərdi ki, hazırda Avropada, Qərbin təşəbbüsü ilə yaradılan əksər beynəlxalq qurumlarda, o cümlədən və xüsusilə Avropa Parlamentində ikili standartlar və islamofob əhval-ruhiyyə hökm sürür:** “Neçə illərdir biz bütün dünyaya, həmçinin Avropa ölkələrinə və qurumlarına yarası hələ sağalmamış Xocalı soyqırımı haqqında həqiqətləri, son 200 ildə ermənilərin türklərə və azərbaycanlılara qarşı törətdiyi vəhşilikləri real faktlarla çatdırırıq. Amma bunun qarşılığında Avropa ölkələri, Avropa Parlamenti, Avropa Şurası kimi qurumlar məsələ ilə bağlı obyektiv, real yükü olan heç bir qərar qəbul etməmişlər. Tarixi faktlar, sənədlər təsdiq edir ki, 1915-ci ildə Türkiyə ərazisində ermənilərə qarşı heç bir soyqırım olmayıb. Türkiyənin müharibəyə cəlb olunduğu həmin dövrdə ermənilər çoxsaylı silahlı dəstələr yaradaraq arxa cəbhədə üsyan qaldırıblar, türk ordusuna qarşı hücumlar təşkil ediblər, ayrı-ayrı şəhər və qəsəbələrdə kütləvi qətllər törədiblər, əhaliyə qarşı qeyri-insani aksiyalar həyata keçiriblər.

Təbii ki, türk ordusu da dinc əhalini müdafiə etmək, onları erməni vəhşiliklərindən qorumaq üçün lazımi tədbirlər görüb. Ermənilərin bu və ya digər ərazilərə köçürülməsi zamanı da heç bir soyqırım baş verməyib, sadəcə, müharibə şəraitinin tələblərinə müvafiq olaraq həyata keçirilən aksiyalar öz sərtliyi ilə seçilib. Buna görə hazırda tarixi reallığı təhrif edərək, heç bir fakta istinad etmədən, o dövrün arxiv materiallarını araşdırmadan bir qrup siyasətçinin, deputatın ötən əsrin əvvəlində baş verən hadisələri qiymətləndirməsi kökündən yanlışdır. “Erməni soyqırımı” haqqında iddialar subyektiv mülahizələrə söykənib, islamofob, antimüsəlman və antitürk meyllərin güclənməsinin təzahürüdür. Bu, həm də müasir dünyada, xüsusən Qərbdə hökm sürən ikili standartların nəticəsidir. Təbii ki, Qərbin ayrı-ayrı dairələrinin tarixi təhrif etmək və müsəlman dünyası haqqında yanlış təsəvvür formalaşdırmaq cəhdləri pislənilməli, bütün iddialar konkret faktlar əsasında cavablandırılmalıdır. Tərəqqipərvər bəşəriyyət bilir ki, belə hadisə olmayıb və bu kimi qərarlar və qətnamələr yalnız ayrı-ayrı dairələrin öz maraqlarını təmin etmək cəhdlərinin nəticəsi olaraq meydana çıxır. Həmin dairələr hazırda Rusiyaya qarşı formalaşdırılan birliyə qoşulmadıqlarına görə Türkiyə və Azərbaycandan qisas alırlar. Biz belə yalanlarla, “qara piar” kampaniyaları ilə “Eurovision” mahnı müsabiqəsi zamanı, Ramil Səfərov Azərbaycana ekstradisiya olunarkən qarşılaşmışıq və indi də I Avropa Oyunları ərəfəsində həmin dəst-xətti açıq müşahidə edirik".



**Əli Həsənov: “Avropa Parlamenti ilə bütün əlaqələrə yenidən baxmalı olacağıq”**

**Ə.Həsənov onu da qeyd edib ki, bu qətnamə Avropa Parlamentinin birinci belə subyektiv, antiislam, antitürk və anti-Azərbaycan mahiyyəti kəsb edən qərarı deyil:** “Yəqin ki gələcəkdə də biz bu tipli ”qərarların" şahidi olacağıq. Nə Azərbaycan, nə də Türkiyə özlərini anti-Qərb mövqeyində hiss etmirlər və Qərblə bütün sahələrdə ədalətli, bərabərhüquqlu əməkdaşlığa və tərəfdaşlığa hazırdırlar. Amma təəssüf ki, son zamanlar həm ABŞ-da, həm də Avropada müsəlman və türk xalqlarına qarşı bir ovqat hökm sürməkdədir. Onlar israrla müsəlman dünyasını yanlarında deyil, qarşılarında görmək istəyirlər. Bu siyasətin Qərbə nə verəcəyini tarix özü göstərəcək. Amma biz dövlət olaraq imkan verə bilmərik ki, onların bu kimi ədalətsiz qərarları dünya ictimaiyyətinə təlqin olunsun və real həqiqət kimi zorla insanların beyninə yeridilsin".

**Ə.Həsənov onu da qeyd edib ki, bu qərardan sonda Azərbaycan Avropa Parlamenti ilə münasibətlərinə yenidən baxmalı olacaq:** “Azərbaycan Avropa Parlamentinin ”Avronest" qrupunda fəaliyyətini dayandırıb. Belə getsə, Avropa Parlamenti ilə bütün əlaqələrə yenidən baxmalı olacağıq".

**Azərbaycan Xarici İşlər Nazirliyi də qətnaməyə münasibət bildirib.**

**XİN mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev APA-ya bildirib ki, bu qətnamə əsassız, qərəzli və qeyri-ciddi olaraq, ikili standartların bariz nümunəsidir.** “Avropa Parlamentində Ermənistan və erməni lobbisinin təsiri altında olan bir sıra dairələr tərəfindən təşviq edilən bu qətnamə və ümumiyyətlə, ”erməni soyqırımı" ifadəsinin işlədilməsi tarixin saxtalaşdırılması və onun siyasi məqsədlər üçün təfsir olunması cəhdləridir. İnsan hüquqlarının “müdafiəçisi” roluna iddia edən dairələr Avropa Parlamentində erməni daşnakların 1918-ci ilin martında Bakıda və Azərbaycanın digər şəhərlərində törədikləri qanlı qırğınlara, Ermənistanın Azərbaycana qarşı təcavüz və işğalına, Ermənistan ərazisində tarixi torpaqlarında və işğal olunmuş Azərbaycan ərazilərində azərbaycanlılara qarşı törədilmiş qanlı etnik təmizləməyə, Xocalı faciəsinə münasibət bildirməyə özlərində hələ də cəsarət tapa bilməmişlər.

Hələ 80-ci illərin sonunda Avropa Parlamentində Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına dair qətnamənin qəbul edilməsi sonradan Ermənistanın Azərbaycana qarşı təcavüzünə, on minlərlə azərbaycanlının ölümünə və bir milyondan artıq insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinə töhfə verən addımlardan biri olmuşdur. Avropa Parlamentinin 15 aprel 2015-ci il tarixli qətnaməsi də Ermənistanın əsassız iddialarına dəstək verərək regionda gərginliyin daha da artmasına rəvac verir" deyə, H. Hacıyev vurğulayıb.

# ABŞ-a yenə “Bakıda inqilab” ittihamı

## Bu dəfə amerikalı analitiklər Vaşinqtonun keçmiş SSRİ məkanındakı planlarından yazdılar



Pol Kreyq Roberts

**“Vaşinqton Azərbaycanı rəngli inqilabların hədəfi kimi nəzərdən keçirir”. Bu barədə nüfuzlu amerikalı analitik, Reyqan administrasiyasında işləmiş, sonralar “The Wall Street Journal”, “Businesweek” kimi nəşrlərin baş redaktoru olmuş Pol Kreyq Roberts “Personal Liberty” portalında dərc edilmiş məqaləsində yazıb.**

Pol Kreyq Robertsə görə, Amerika administrasiyası Ermənistan, Özbəkistan və Qırğızıstanda ya hakimiyyətləri inqilab yolu ilə devirməyə, ya da onların Vaşinqtona loyallığını satın almağa çalışacaq. Onun fikrincə, Ağ Ev dövlət katibinin müavini Viktoriya Nulandı Bakıya və İrəvana təsadüfən göndərməmişdi. Eyni zamanda pensiyaya çıxmış diplomat, rəngli inqilabların konstruktoru hesab olunan Riçard Maylzın geri çağırılaraq Qırğızıstana müvəqqəti işlər vəkili göndərilməsi təsadüfi deyil. Özbəkistana səfir göndərilən Pamela Spartlenin qarşısında isə bu ölkənin hakimiyyətinin ABŞ-a sadiqliyini “satın almaq” missiyası qoyulub. Amerikalı analitikin məqaləsinin xülasəsinə Rusiyanın “Voennoe Obozrenie” (“Hərbi İcmal”) nəşri yer verib. Bu nəşr Rusiya Müdafiə Nazirliyinə yaxındır. (virtualaz.org)

Digər amerikalı analitik Stiven Mak-Millan da eyni fikirdədir. Rusiya hərbi nəşrinin yazdığına görə, o, Kanadanın “Global Research” portalında dərc edilmiş məqaləsində göstərir ki, ABŞ Rusiyaya qarşı əsl geosiyasi müharibə aparır. Bu məqsədlə Mərkəzi Asiyada yeni cəbhə açılıb-orada Vaşinqton rəngli inqilablar, çevrilişlər, qeyri-stabillik üçün zəmin hazırlayır, Moskvanın mövqelərini zəiflətməyə və Rusiyanı tam təcrid etməyə cəhd edir. Analitik hesab edir ki, Qərb Ukraynada tətbiq etdiyi “uğurlu modeli” Ermənistan, Qırğızıstan və Azərbaycanda da sınaqdan keçirmək istəyir.

Qırğızıstan Avrasiya İttifaqına daxil olmağa qərar verdiyi üçün bu Orta Asiya ölkəsində hakimiyyəti devirmək ABŞ-ın mühüm vəzifəsidir. Analitik yazır ki, Qırğızıstanda inqilab təşkil etmək üçün Riçard Maylz Bişkekə göndərilib. O, Gürcüstandakı “qızılgül inqilabı”nın baş rejissoru idi. Vaşinqton Qırğızıstanda hakimiyyəti inqilab yolu ilə dəyişməklə yanaşı Özbəkistanda Kərimov rejimini ələ almağı planlaşdırır. Əgər bu baş tutmasa Vaşinqton orada xaos yaradacaq.

Analitik Viktoriya Nulandın fevral ayında Cənubi Qafqaza səfərinin əsas məqsədlərindən birinin Ermənistanda inqilaba zəmin hazırlamaq olduğunu, diplomatın bu məqsədlə QHT-lərlə qapalı görüş keçirdiyini qeyd edir. Həmin görüşdən sonra Rusiya və Ermənistan narahat olublar, Ermənistan QHT-lərə dair qanunu sərtləşdirməyi qərara alıb. **“Azərbaycan hakimiyyətindəki adamlar da narahatdırlar. Onlar istəmirlər ki, ölkələrini rəngli inqilabların alovu bürüsün”** deyə, analitik qeyd edir.

“Voennoe Obozrenie” qeyd edir ki, Qərbin bu planları Rusiya tərəfindən yaxından izlənir, prezident Putin Avrasiya regionunda sabitliyi qorumaq və rəngli inqilablara imkan verməmək üçün iş aparır.

Qeyd edək ki, ötən həftə Rusiya Dövlət Dumasının beynəlxalq işlər üzrə Komitəsinin sədri Aleksey Puşkov Bakıdakı ABŞ səfirliyini “narıncı inqilab” hazırlamaqda ittiham etmişdi. **“Amerikanın Bakıdakı səfirliyinin fəaliyyəti bir sıra suallar doğurur, o cümlədən onların fəaliyyətinin siyasi aspektləri. Axı Amerikanın xarici siyasətində ”narıncı inqilab" tematikasını heç kim ləğv etməyib"** deyə, Puşkov bildirmişdi. Puşkov demişdi ki, “ABŞ-ın bir sıra ölkələrdə ”narıncı inqilabları" inadla dəstəkləməsi Azərbaycan rəhbərliyi tərəfindən ABŞ-la münasibətlərdə nəzərə alınır". O, “ABŞ-la münasibətlər dövlət üçün çox təhlükəli olar” deyə, dolayısı ilə rəsmi Bakıya xəbərdarlıq da etmişdi.

ABŞ səfirliyi isə cavab bəyanatında Puşkovun dediklərinin əsassız və dəyərsiz hesab etdiklərini bildirmişdi.

Ekspertlərə görə, Moskvanın vaxtaşırı olaraq Vaşinqtonu Azərbaycanda “narıncı inqilab” hazırlamaqda ittiham etməsi, eləcə də bu cür mövzuları gündəmə gətirməsi Kremlin Azərbaycanın ABŞ ilə yaxınlaşmasından narahatlığını göstərir.

❑ Xəbər xidməti



# Təməl prinsiplərə qayıtsaq...

Hüseynbala SƏLİMOV

**Nəyinsə dərki, başa düşülməsi o vaxt kamilləşir ki, sən təkrar-təkrar ona qayıdırsan. Bəzilərinə bu, bir qədər yorucu və cansıxıcı görünür. Amma mənə həmişə elə gəlib ki, A.Eynşteyn nisbilik nəzəriyyəsini ona görə kəşf etdi ki, o, təkrar-təkrar fizikanın fundamental anlayışlarına - zaman və məkan anlayışlarına qayıdır, hər dəfə onları yenidən başa düşməyə, yenidən dərk etməyə çalışırdı...**

Təbii ki, biz Eynşteyn deyilik və qarşımıza da yeni fiziki nəzəriyyə yaratmaq məqsədini də qoymamışıq. Amma siyasi publisist də nəyisə dərk etməyə cəhd edir. Bu, bəzən onun çevrəsində baş verən siyasi proseslər, bəzən də dünyada cərəyan edən hadisələr olur...

Bu mənada özümüzü də istisna hesab etmirik. Bu günlərdə maraqlı, həm də insanın əhvalını qaldıra biləcək xəbər eşitdik. Bəlli oldu ki, Türkiyə də yaxın illərdə nüvə dövlətləri sırasına qoşulmaq əzmindədir. Belə ki, Rusiyanın köməyi ilə Türkiyədə 4-5 il ərzində ilk AES qurulacaq...

İndi hamının diqqəti qondarma “soyqırım” ətrafında cərəyan edən hadisələrdə olsa da, düşünürük bu məkrli prosesə-qondarma erməni “soyqırım”ına ən yaxşı cavab Türkiyənin inkişaf etməsi, dünyanın qabaqcılları sırasına qoşulmaqdır...

Amma hadisə məni başqa bir fikrə də yönəltdi. Fikirləşdim ki, rusların da, elə bizlərin də siyasətə baxışında o şey çatışmır ki, onun əsasında Qərbin bütün siyasi həyatı bərqərar olub. Bəli, bunun adı praqmatizmdir. Praqmatizmi hamı bir siyasi fəlsəfə kimi qəbul edir, daha doğrusu, ona saygı ilə yanaşır, amma gəl, hamı praqmatik ola bilmir...

Rusiyanın da, bizim də siyasətə baxışımız çox irrasionaldır. Şərqdə, ümumiyyətlə, irrasionallıq həmişə dəbdə olub. Şərqin bütün fəlsəfəsi, onun bütün ezoterik və qeyri-ezoterik təlimləri irrasionallıq üzərində bərqərar olub.

Ruslar konkret olaraq özlərini Şərqə və ya Qərbə aid etmirlər. Amma diqqətlə baxanda görürsən ki, elə Rusiya da şərq ölkəsidir...

Qərblilər həmişə praqmatik olublar. Bizə də bu yola çıxmaq lazımdır. İndi bunu niyə görə deyirəm? İlk türk AES-nin təməlqoyma mərasimini seyr edəndə ağlıma gələn ilk fikir türk-slavyan ittifaqı, birliyi oldu. Düşündüm ki, bunun üçün yetərincə zəmin var - bir millət kimi rusların keçmişi, bugünü və gələcəyi türklərlə daha çox bağlı olub, nəinki qeyri millətlərlə...

Deməli, zəmin var, ideya düşünülən qədər də süni deyil. Vaxtilə bunun haqqında çox ağıllı adamlar danışırdı. Məsələn, Qazaxıstanda bu fəlsəfə çox populyardır. Burada dərhal yadıma Oljas Süleymenov və onun yazdıqları düşür. Elə bir praktik siyasətçi kimi Nursultan Nazarbayev də bu fikrə yaxın olub...

Adam düşünür ki, axı Ermənistan Rusiyaya nə verir? Məgər Rusiyanın siyasi institutları bu haqda düşünmürmü?

Mən əminəm ki, Rusiya siyasəti nə vaxtsa türk amilini nəzərə alacaq və bunu xəritədə harasa “türk zolağı” deyərək ondan xoflanmadan edəcək...

Yadıma gəlir, bir vaxt “türk zolağı” haqda yazılar çox populyar idi. Özünün “geopolitika əhli” olduğunu nümayiş etdirmək istəyən hər bir kəs bu mövzuda yazmağı vacib bilirdi, çünki burada ağıllı görünmək şansı vardı...

Sonradan bu maraq bir qədər azaldı. Mən bunun dəqiq səbəblərini bilmirəm. Bəlkə də başlanğıcda hər şey maraqlı görünür, sonradan isə adiləşir. Ola bilsin ki, türk birliyi ilə bağlı eyforik fikirlər, ümidlər doğrulmadı...

Amma məndə dərhal sual yaranır: əfəndilər, doğrudanmı, siz hər şeyin belə tezliklə baş verəcəyini düşünürdünüz? Axı hər şey belə tezliklə baş verə bilməzdi! İndi türk dövlətləri yaranıb. Birinci pillə adlanıb. Deməli, prosesi davam etdirmək lazımdır...

Təəssüf ki, bir ara özümüz də siyasi platformalarımızda türkçülük məsələlərinin çəkisini azaltdıq. Doğrusu, bizi buna bir neçə amil təhrik etdi və bu gün onların hansının daha önəmli olması bəlkə də bir o qədər də vacib deyil...

Nədən ehtiyat etdik? Həm ölkənin içindəki və həm də xaricindəki münasibətdən çəkindik - qorxduq ki, xaricdə bizi etnik millətçilər kimi qəbul edərlər, daxildə isə öz baxışlarımızla özümüz də istəmədən daxili etnik qarşıdurmalara rəvac verərik. Ölkə o vaxt çox mürəkkəb durumda idi və onun maraqları azərbaycançılığı önə çəkməyi diqtə edirdi...

Amma bu, bir zaman məsələsi idi. O vaxt da düşünürdük ki, bu geri çəkilmə həmişəlik deyil. Onsuz da dünya meydanına biz türk ideyası ilə çıxacaqdıq...

# İŞİD daha bir azərbaycanlını “agent” kimi edam etdi

## Müxalifət partiyalarından yaraqlılara qoşulanlar varmı?

**İŞİD terrorçu təşkilatı sıralarında döyüşənlər arasında həmyerlilərimiz də var. Milli Təhlükəsizlik Nazirliyinin bir-birinin ardınca keçirdiyi əməliyyatlar nəticəsində Yaxın Şərqdəki qanunsuz silahlı dəstələrin tərkibində döyüşlərdə iştirak etmiş və geri dönən yüzlərlə şəxs tutulub. Qeyd edək ki, son dövrlər İŞİD-in tərkibində vuruşan azərbaycanlıların müxtəlif adlar altında edam olunmaları haqda xəbərlər yayılır.**

Aprelin 16-da da İŞİD daha bir azərbaycanlını edam edib. Avropa.info xəbər verir ki, bu haqda məlumat Türkiyə mediasında yayılıb. Əbu Mahmud ləqəbli azərbaycanlının “Səudiyyə Ərəbistanı agenti” adıyla edam edildiyi bildirilir.

Bir müddət öncə, Sirac Azəri adlı azərbaycanlının da “xəvaric” ittihamı ilə İŞİD tərəfindən edam edilməsi haqda “Timetürk” saytı məlumat yaymışdı.

Maraqlıdır, ölkəmizdə fəaliyyətdə olan müxalifət partiyalarında hər hansı bir terrorçu qruplaşmaya üzv olan şəxslər varmı? Keçmiş üzvlərdən belə qruplaşmalara qoşulanlar olubmu?

**Klassik Xalq Cəbhəsi Partiyası sədrinin müavini Xəzər Teyyublu deyir ki, KXCP Azərbaycan Xalq Cəbhəsinin varisidir və partiyalarında belə bir üzvün olması sadəcə mümkünsüzdür:** "KXCP üzvləri Rəsulzadə-Elçibəy ideyasını daşıyan insanlardır və bu yolunun yorulmaz davamçılarıdır. KXCP ideoloji bir təşkilatdır və Bütöv Azərbaycan ideyasını qarşısına məqsəd qoyaraq mərhələli Allahın verdiyi ömrün imkanları çərçivəsində məqsədə çatmaq uğrunda mübarizə aparırlar. KXCP üzvləri ölkədə demokratik prinsiplərin bərqərar olmasına çalışan, ölkəmizin azadlığı uğrunda canından-qanından keçməyə hazır olan insanlardır. Bu təşkilat ölkəmizin dövlət müstəqilliyinin bərpasında iştirak etmiş təşkilatdır. Üzvlərimiz heç bir zaman antiinsani, antibəşəri dəyərlərə malik olan hər hansı bir təşkilata sadəcə üz tuta bilməzlər. Terror təşkilatları bizim daşıdığımız ideyalara daban-dabana zidd ideya daşıyan təşkilatlardır. KXCP-də belə şəxslər yoxdur və heç zaman da olmayıb".

**Müsavat Partiyası başqanının müavini Elman Fəttah bildirdi ki, təmsil etdiyi təşkilatın nizamnaməsi belə halları istisna edir:** “Müsavat Partiyasının Nizamnaməsi belə halları çox gözəl tənzimləyir, istisna edir. Nizamnaməyə görə, partiyanın üzvü demokratik prinsiplərə zidd fəaliyyət göstərən hər hansı bir təşkilatın üzvü ola bilməz. Bu mümkün deyil. Hətta Müsavat Partiyasının üzvü hər hansı bir hüquq-mühafizə orqanında işə düzəlmiş olsa, onun üzvlüyü avtomatik olaraq ləğv edilmiş sayılır”.



**E.Fəttah deyir ki, hazırda Müsavat Partiyasının hər hansı bir terror təşkilatında olan üzvü yoxdur:** “Müsavat Partiyasına üzv olan insanlar demokratiya uğrunda yalnız dinc mübarizə aparan insanlardır. Hətta keçmiş müsavatçının belə bir təşkilatda olmasını təxmin etmirəm”.

Məlumat üçün bildirək ki, bir müddət əvvəl terrorçu dəstələrdə döyüşənlərə qarşı daha sərt tədbirlərin görülməsi üçün qanunvericilik də dəyişdirilib. Bu dəyişiklikdən sonra belə qruplaşmalara üzv olanlar 15 illik cəza ilə yaxalarını kənara çəkə bilməyəcəklər. 1 il əvvəl qəbul edilən qanuna görə, Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin tərkibində ölkənin hüdudlarından kənarda aparılan silahlı münaqişələrə cəlb etmə, yaxud bu məqsədlə döyüş təlimləri keçmə, yaxud həmin məqsədlə fəaliyyət göstərən sabit qrup yaratma və ya belə qrupa rəhbərlik etməyə görə qanunvericiliklə müəyyən edilmiş cəza müddətləri artırılaraq 20 il və ya ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkumetmə ilə cəzalandırılır.

❑ E.MƏMMƏDƏLİYEV

# Şeyxdən təxribat xəbərdarlığı

## Bakıda “İslam maarifçiliyi və müasir dövr” mövzusunda beynəlxalq konfrans keçirilir

**Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) “İslam maarifçiliyi və müasir dövr” mövzusunda iki günlük beynəlxalq konfrans keçirilir. APA-nın xəbərinə görə, konfrans AMEA Rəyasət Heyətinin qərarı əsasında akademiya, Qafqaz Müsəlmanları İdarəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə baş tutub.**



**Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə deyib ki,** müasir dönəmdə biz cəmiyyət və insan həyatına ciddi hədə olan hadisələrlə, özünü İslama aid edən radikal dini təriqətlərin və cərəyanların dağıdıcı fəaliyyəti ilə qarşılaşırıq: “Görünən odur ki, müsəlman dünyası böyük bir təhlükə və sonu fəlakətə apara biləcək təxribatlarla üz-üzə qalmışdır”.

**A.Paşazadə daha sonra deyib:** “Bildiyiniz kimi, biz Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ torpaqlarının işğalını, Xocalı soyqırımını, erməni ekstremistlərinin mütəmadi terrorunun acılarını yaşayan, məscidlərin dağıdılmasının, tarixi abidələrimizin məhv edilməsinin şahidi olan bir xalqın nümayəndələriyik. Bu fəlakətləri özümüzdə yaşadığımız üçün İraqdakı qətliamları, Suriyadakı qardaş qırğınlarını, hər gün İŞİD-in törətdiyi rəzalətləri, Qüdsdəki hərbi cinayətləri və terror aktlarını qətiyyətlə pisləyirik. İki yüz ildən artıq bir dövr ərzində azərbaycanlılara qarşı mütəmadi deportasiya və genosid siyasəti aparan Ermənistanın özünü dünyaya ”məzlum qurban" kimi təqdim etməsini siyasi riyakarlıq hesab edirik. Həqiqi faktları təhrif edərək erməni soyqırımını tanıyanlar, gerçək Xocalı qətliamını görməzlikdən gəlir, bu günə qədər bu faciənin tam şəkildə real hüquqi-siyasi qiymətini verə bilmirlər".

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi bildirib ki, İslam maarifçiliyi məsələsində İslam ölkələri arasında koordinasiyanın yaradılmasına ehtiyac var:** “Bura elm, tədris mərkəzləri, qeyri-hökumət təşkilatları cəlb edilməlidir”.

**Komitə sədri deyib ki, bu gün Avropada müxtəlif qruplar İslam əleyhinə çağırışlar edirlər:** “Onların içərisində faşist ideologiyasının ardıcılları olmaqla yanaşı, aralarında özünü elm adamı kimi təqdim edənlər də var”.

**M.Qurbanlı Azərbaycanın İslam sivilizasiyanın tərkib hissəsi olduğunu xatırladıb:** “Eyni zamanda Azərbaycan dini xurafata və geriliyə qarşı mübarizə aparan mayak rolunu oynayır. Azərbaycanın İslam maarifçiliyinin inkişafında rolu danılmazdır. Zaman-zaman alimlərimiz burada əsl İslamı təbliğ ediblər. Hazırda ölkədə İslam dini pərdəsi altında gənclərə qarşı yönəlmiş təxribatların, radikalizmin qarşısı alınır. İslamşünaslıq yeni inkişaf mərhələsinə daxil olur. Biz milli-mənəvi dəyərlərimizi qorumalı, eyni zamanda milli kadrlarımızı yetişdirməliyik. İslam dəyərlərinin təbliğində bu gün Azərbaycan alimlərinin, islamşünasların tədqiqatlarına böyük ehtiyac var”.

**M.Qurbanlının sözlərinə görə, İslamı yalnız radikalların simasında görüb onu elə təbliğ etmək istəyənlər islamofobiyaya rəvac verə bilərlər:** “Lakin elm aləmində islamofobiya müşahidə olunmur. Çünki onlar onun mahiyyətini anlayırlar”.

YENİ MÜSAVAT
N 81 (6109) 17 aprel 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Rusiya Baş Qərargah rəisindən Qarabağda savaş xəbərdarlığı

**Son günlər davamlı şəkildə Rusiyadan Qarabağda müharibənin alovlana biləcəyi barədə xəbərdarlıqlar yayılmaqdadır. Düzdür, ara-sıra Rusiya rəsmiləri Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində növbəti savaşın başlanmasını təsəvvürə belə gətirmədiklərini də açıqlayırlar. Lakin bu məsələ ilə bağlı bəyanatların ardıcıllığına diqqət yetirsək, savaş ehtimalını özündə ehtiva edənlərin sayı daha çoxdur.**

"Azərbaycanla Ermənistan arasında müharibə başlasa, Rusiya hərbi müdaxilə etməyəcək, yalnız diplomatik üsullarla müharibəni dayandırmağa çalışacaq" deyə, rusiyalı politoloq, Qafqaz məsələləri üzrə ekspert Andrey Yepifantsev erməni portalına müsahibəsində bildirib. Onun sözlərinə görə, əgər savaşa Ermənistan bütünlüklə cəlb olunsa, o halda Rusiya müdaxilə etməyə borcludur. "Lakin bu qarantiya Ermənistana aiddir. Dağlıq Qarabağa yox. Qarabağa bir şey olsa, Moskva yalnız diplomatik vasitələrlə bunun qarşısını almağa səy edəcək" deyə, politoloq qeyd edib. Ekspertin qənaətincə, təmas xəttində yaşanan son gərginlik onun göstəricisidir ki, görüşlərdə anlaşma əldə edilməyib: "Səbəb aydındır - Minsk Qrupu dalana girib, çıxış yolu yoxdur. Bu gün danışıqlar masası üzərində olanlar nə Bakını qane edir, nə də İrəvanı".

Postsovet məkanında mövcud olan "dondurulmuş" münaqişələr Rusiya sərhədləri yaxınlığında silahlı toqquşmaların meydana çıxması riski yaradır. Virtualaz.org saytı xəbər verir ki, bu barədə Moskvada keçirilən təhlükəsizlik konfransında çıxışı zamanı **Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Valeri Gerasimov** bildirib. Onun dediyinə görə, bu münaqişələr Rusiyanın təhlükəsizliyini təhdid edir. Üstəlik, general münaqişələrin Qərb tərəfindən qızışdırıla biləcəyinə eyham vurub: "SSRİ-nin parçalanmasından sonra 20 ildən artıqdır ki, Moldovanın Dnestryanı bölgə ilə, Gürcüstanın Cənubi Osetiya və Abxaziya ilə münaqişəsi, habelə Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağın statusuna görə münaqişə öz həllini tapmayıb. Rusiya Federasiyasının ABŞ və Avropa ilə münasibətlərinin kəskinləşməsi fonunda bu münaqişələr sərhədlərimizin yaxınlığında silahlı toqquşmaların meydana çıxması riski yaradır". General Gerasimov bildirib ki, hazırda Gürcüstan hakimiyyəti Abxaziya və Cənubi Osetiyanın güc yolu ilə respublikanın tərkibinə geri qaytarılması niyyətinin olmadığını bildirir. Ancaq Rusiyanın bu respublikaları tanıması və onlarla əlaqələr yaratması rəsmi Tiflis tərəfindən "ilhaq" kimi qəbul edilir. O qeyd edib ki, son vaxtlar Moldova Ukraynanın yeni hakimiyyətinin dəstəyi ilə Dnestryanı bölgədən rus sülhməramlılarının çıxarılmasında tez-tez israr edir, bu tanınmamış "respublikanı" iqtisadi blokadaya almaq səylərini dayandırmır.

Qeyd edək ki, Moskvada 16 apreldə işə başlayan beynəlxalq təhlükəsizlik konfransı sayca dördüncüdür. Orada Rusiyanın xarici işlər naziri Sergey Lavrov, müdafiə naziri Sergey Şoyqu da çıxış ediblər. 79 ölkənin müdafiə nazirləri və hərbi heyətlərinin dəvət olunduğu konfransda Azərbaycanı müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev təmsil edir. Ermənistan müdafiə naziri Seyran Ohanyan da iştirakçılar arasındadır. Belə bir tədbirdə dondurulmuş münaqişələrlə bağlı səslənən fikirlər növbəti gərginlik ocağının anonsu sayıla bilərmi? Düzdür, Azərbaycan tərəfi torpaqlarını düşməndən azad etmək üçün bütün variantlara hazır olduğunu daim bəyan edir. Son vaxtlar ordu rəhbərliyinin silahlı qüvvələrin döyüş hazırlığını yoxlamaq üçün irimiqyaslı gecə və gündüz təlimlərini keçirməklə bağlı qərar verməsi, həmçinin cəbhədəki gərginlik, hər iki tərəfdən itkilərin olması da böyük müharibə ehtimalını hər zaman aktual edir. Lakin Ermənistanın buxovunu əlində saxlayan Rusiyadan bu kimi mesajların gəlməsi daha həssas yanaşma tələb edir.

**Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri komitəsinin üzvü, deputat Zahid Oruc bu barədə "Yeni Müsavat"a bildirdi ki, "dondurulmuş münaqişələr"in Rusiyanın təhlükəsizliyinə zərbə vurduğunu şimal qonşumuzun hərbi rəhbərliyinin etiraf etməsi mühüm hadisədir:** "Çünki ötən illər ərzində, əksinə, Qarabağ və digər ərazilərdə gedən silahlı toqquşmalardan müxtəlif dövlətlərin fayda götürdüyü barəsində gerçək təhlillər, faktlar ortaya qoyulurdu və belə "idarə olunan" hərbi toqquşmaların geosiyasətə, təhlükəsizlik planlarına, yaxud iqtisadi sərvətləri ələ keçirməyə görə törədildiyini hətta sadə insanlar belə bilirdilər. Nəhayət, Kremlin başında olanlar ötən ilin təcrübəsinə baxaraq, xüsusilə də Qərbin regiondakı istənilən münaqişəni ələ almağa çalışmaqla bölgəni siyasi-iqtisadi cəhətdən fəth etməyə çalışdığını gördükdən sonra etiraf etməli oldular ki, Qarabağ konflikti olmasaydı, Rusiya bundan daha çox faydalana bilərdi. Bir tərəfdən, ölkəmizlə daha geniş koperasiya baxımından, digər tərəfdən, istənilən anda növbəti hərbi eskalasiyanın başlayıb onu Rusiyanı bir neçə cəbhədə vuruşmağa vadar etməkdə, terrorizmi yaymaqda və qeyri-sabitlik dalğasını rus dünyasına keçirməkdədirlər. Ona görə Azərbaycanın ərazi bütövlüyünün təminatı Rusiyanın da təhlükəsizliyinin qarantıdır. Əgər regionda sülh bərqərar olsa, bu heç bir halda Cənubi Qafqazın Rusiyanın təsir dairəsindən çıxmasına səbəb olmayacaq, əksinə, münaqişələr yeni müstəqil ölkələri Qərbdə özünə dayaq axtarmağa vadar edir".



**Zahid Oruc:**
"Azərbaycanın ərazi bütövlüyünün təminatı Rusiyanın da təhlükəsizliyinin qarantıdır"



**Üzeyir Cəfərov:**
"Azərbaycan çox rahat şəkildə öz sərhədləri daxilində antiterror əməliyyatlarına başlaya bilər"



**Arzu Nağıyev:**
"Bu bəyanatlar regional və daha böyük miqyaslı münaqişələrin alovlanmasına gətirib çıxara biləcək məsələlərə bir eyhamdır"

**Siyasi şərhçi Arzu Nağıyev hesab edir ki, Qarabağda böyük savaşın başlanacağı barədə bəyanatların səsləndirilməsi dünyada və regionda baş verən proseslərin davamıdır:** "Məlumdur ki, yaz aylarında Rusiyanın Şimali Qafqaz regionunda münaqişələrin yenidən qızışması ehtimalı böyük olur. Bundan başqa, Rusiya və Ukrayna arasında gedən Donbasla bağlı münaqişə öz həllini tapmayıb və yəqin ki, yaxın zamanda tapmayacaq. Eyni zamanda Orta Asiyada yarana biləcək münaqişələr Rusiyanın xeyrinə deyil. NATO Ukrayna hadisələri ilə bağlı müxtəlif silah növlərini Rusiyanın sərhədlərinə yaxınlaşdırır. Demək olar ki, bu münaqişələrin yaranmasında, konkretləşdirsək, Gürcüstanla Cənubi Osetiya və Abxaziya, Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ, Moldovanın Dnestryanı bölgəsində olan problemlərin həll edilməməsində Rusiya birbaşa məsuliyyət daşıdığını dərk edir". **A.Nağıyevin fikrincə, bu gün regionda hər hansı bir münaqişə başlayarsa, bu, domino effekti verə bilər:** "Məlumdur ki, bu gün Rusiya hərbi xərclərini artırıb və sanki dünya müharibəsinə hazırlaşır. Hərbi ekspertlərin rəyinə görə, Rusiya 5-6 ildən sonra NATO ilə böyük regional savaşa başlamağa hazırlıq görür. Moskva belə başa düşür ki, bir neçə ildən sonra dünya krizisi başlaya bilər və əsas resurs mənbəyi kimi Rusiya seçilər. Bunun qarşısını almaq üçün isə indidən hazırlıq görmək lazımdır. Daha doğrusu, münaqişə ocaqlarını öz sərhədlərindən uzaqlaşdırıb bufer zonası yaratmaq vacibdir. Əsas rəqib ABŞ olsa da, Moskvanın fikrincə, Ukrayna da daxil olmaqla, perimetr üzrə müdafiə sistemi yaradılmalıdır. Məhz buna görə də nəyin bahasına olursa-olsun cənubdan Ermənistan, Qərbdən Ukrayna, təbii ki, Orta Asiyada da bu proseslər davam edəcək. Məhz buna görə də Dağlıq Qarabağ münaqişəsi bu planın tərkib hissəsi ola bilər. Eyni zamanda NATO da Avropa korpusu yaratmaqla istər Pribaltika, istərsə də digər ölkələrdə, mərkəzi qərargah Polşada olmaqla, hazırlıq işləri görür. İnkar etmək olmaz ki, NATO bu proseslərə məhz İŞİD və digər qruplaşmaları da istər Orta Asiyadan, istərsə də digər ölkədən cəlb etməyəcək. Yəni bu bəyanatlar tək Dağlıq Qarabağ münaqişəsinin deyil, regional və daha böyük miqyaslı münaqişələrin alovlanmasına gətirib çıxara biləcək məsələlərə bir eyhamdır".

**Hərbi ekspert Üzeyir Cəfərovun fikrincə, müharibə ilə bağlı mesajlar hər zaman ciddi qəbul olunmalıdır:** "Nə qədər ki, münaqişə öz həllini tapmayıb, müharibə riski hər an var. Düzdür, Rusiyanın müdafiə naziri Lavrov Ermənistan XİN başçısı Nalbəndyanla görüşündə demişdi ki, biz Dağlıq Qarabağda müharibəni təsəvvürümüzə belə gətirmirik. Amma müharibəyə başlayıb-başlamamaq barədə qərar Moskvada yox, Bakıda qəbul olunur. Əgər ATƏT-in Minsk Qrupunun həmsədri olan dövlətlər işğalçıya təsirli təzyiq göstərərək torpaqların azadlığı istiqamətində addımlar atmasa, Azərbaycan bütün digər vasitələrlə yanaşı, güc amilindən istifadə edəcək".

**Hərbi ekspert Rusiyanın savaşa qoşulması ehtimalına da münasibət bildirdi:** "İstər Gerasimov, istər Bordyuja olsun, onlar gözəl bilirlər ki, Azərbaycanın heç vaxt ermənilərə qarşı torpaq iddiası olmayıb. Azərbaycan işğal altındakı ərazilərini azad etmək niyyətindədir. Azərbaycan çox rahat şəkildə öz sərhədləri daxilində antiterror əməliyyatlarına başlaya bilər. Necə ki, Ukraynanın antiterror əməliyyatları dünyada dəstəklənir, o cümlədən də heç kim Azərbaycanın bu addımına qarşı çıxa bilməz. Bizim digər bir üstünlüyümüz də var. Belə ki, ərazilərimizin işğaldan azad olunmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi bu addımımıza hüquqi əsas verir". **Ü.Cəfərov güman edir ki, Gerasimov erməni tərəfdarlarını sakitləşdirmək üçün belə bir mövqedən çıxış edib:** "Amma o bilməlidir ki, belə bir vəziyyət sona qədər davam edə bilməz. Yaxşı olardı ki, Gerasimov erməni həmkarları Xaçaturova, Ohanyana başa salsın ki, başqa ölkənin ərazilərini zəbt etmək olmaz, gec-tez bunun ağır cavabı olacaq".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 81 (6109) 17 aprel 2015

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprel ayının 11-də Astaraya səfər edib. O, əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Astara şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, abidə önünə gül dəstəsi qoyub.**







# Prezident İlham Əliyev "AAAF Park Astara" layihəsi ilə tanış olub

Prezident İlham Əliyev Astaranın Dənizkənarı Park Bulvar Kompleksində yaradılan şəraitlə yaxından tanış olub. Astara Şəhər İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev və "AAAF Park" layihəsinin təsisçisi Tofiq Heydərov "AAAF Park Astara" layihəsini ölkə başçısına təqdim edib. Astara Şəhər İcra Hakimiyyətinin inşa etdiyi dənizkənarı bulvara bitişik olan bu kompleksdə bütün növ xidmətlərin olması barədə məlumat verilib. "AAAF Park Astara"nın həm də bir idman layihəsi olduğu vurğulanaraq qeyd olunub ki, bu layihə dövlətimizin həyata keçirdiyi sosial-iqtisadi inkişaf strategiyası nəticəsində bölgələrin daha da gözəlləşməsi, regionların simasına yeni elementlərin əlavə edilməsinə dəstək məqsədi güdür.

Azərbaycanda dövlət tərəfindən idmana göstərilən böyük diqqət və qayğı nəticəsində ölkəmiz dünyada ön sıralarda yer alaraq öz mövqeyini qorumaqdadır. Bu siyasətə öz dəstəyini nümayiş etdirən şirkətimizin təsis etdiyi "Zirvə Beynəlxalq İdman Klubu"nun filialları arasında bu ilin avqust ayında ağır atletika üzrə "9-cu Dünya Kuboku" keçiriləcəkdir. Klubun filiallarının



olduğu 12 dövlətdən gələn yüzlərlə ağır atlet məhz "AAAF Park Astara"da inşa edilən xüsusi villalarda yerləşdiriləcək. Hər ölkə üçün ayrıca villanın ayrılması, burada sanki yeni bir Olimpiya kəndinin qurulması fikrini ehtiva edir.

Astara şəhəri, Gənclər küçəsindəki 20 hektar ərazidə inşaası nəzərdə tutulan "AAAF Park Astara"da süni şəlalələr, "Limuland" açıq və qapalı uşaq əyləncə mərkəzi, açıq fitnes meydançası, kafe-çay evi, "Zirvə" Uşaq İdman Akademiyası, uşaq əyləncə attraksionları, "Astara Towers", 5 ulduzlu "Tuado" oteli, hovuz və SPA mərkəzi, çimərlik kompleksi, ağır atletika, boks və taekvondo mərkəzləri, villalar, 4 və 5 mərtəbəli binalar-umumilikdə "AAAF Park Astara" layihəsi dövlət başçısının diqqətinə çatdırılıb.

Prezident İlham Əliyev layihədən razılığını dilə gətirərək, görülən və görüləcək işlərdən məmnunluğunu bildirib, tapşırıq və tövsiyələrini verib.

# Rusiya-Türkiyə-Çin-İran-Azərbaycan ittifaqı yarana bilər


Qabil Hüseynli

## **Qabil Hüseynli:** "Avropa öz yanlış addımları ilə Türkiyəni, o cümlədən Azərbaycanı özündən uzaqlaşdırır"

**ABŞ prezidenti Barak Obama 24 aprel tarixində İrəvanda keçiriləcək qondarma erməni soyqırımında iştirak etmək üçün Ermənistana "özəl heyət" göndərəcək. Heyət üzvləri birbaşa Obama tərəfindən təyin ediləcək. Amerikanın Ermənistandakı səfirinin bildirdiyinə görə, ABŞ bu addımı 1915-ci il olaylarının acısını Ermənistanla birlikdə hiss etmək və gələcəkdə bu cür olayların baş verməməsi üçün atır.**

Avropa Parlamenti də aprelin 15-də "erməni soyqırımını"nın olduğu qeyd edilən qətnamə qəbul edib. Latviyadan başqa quruma üzv olan ölkələrin hamısının nümayəndələri qətnaməyə səs veriblər.

Özünü demokratiyanın, haqq-ədalətin himayədarı kimi təqdim edən Qərb, Avropa "erməni soyqırımı" məsələsində nümayiş etdirdiyi mövqe ilə Türkiyəni və Azərbaycanı özündən uzaqlaşdırmaqdadır. Qərbə qarşı hər iki ölkədə ciddi bir etimadsızlıq mühitinin yarandığı bəllidir.

Artıq birmənalı demək olar ki, Türkiyə-Avropa münasibətləri ciddi şəkildə zədələndi. Bəlkə də Türkiyənin Avropa Birliyi üzvlüyü məsələsi birdəfəlik qapandı. Ola bilər ki, Türkiyə Avropa məsələləri üzrə nazir postunu ləğv etsin.

Türkiyə Ərdoğan dönəmində üzünü Şərqə çevirməyə başlamışdı. Artıq bu dönüş ən azı 180 dərəcənin üstündə olacaq. Əlavə olaraq, Türkiyə-Rusiya münasibətləri də yeni mərhələyə qədəm qoya bilər. Türkiyə Rusiya ilə strateji müttəfiqlik qura bilər. Bu qətnamənin Avropa-Azərbaycan münasibətlərinə də soyuqluq gətirməsi gözləniləndir.

**Politoloq Qabil Hüseynli də hesab edir ki, Avropa Parlamentinin qətnaməsi, bir sıra Qərb dövlətlərinin addımları Türkiyənin, Azərbaycanın Avropa Birliyi ilə münasibətlərinə ciddi zərbə vuracaq. Türkiyə Avropa Birliyindən üz döndərə və regionda yeni bir ittifaqın ortaya çıxması baş verə bilər:** "Birinci Roma papası, sonra Avropa Parlamentinin qətnaməsi, bir sıra Qərb ölkələrinin parlamentlərinin üzdəniraq qətnamələri bir daha təsdiq etdi ki, tarixi araşdırmadan sırf xristian təəssübkeşliyi edirlər. Demokrat kimi yox, xristian kimi hərəkət edirlər. Bu dalğada demokratik dəyərlər, tarixi faktlara hörmət kimi məsələlərə tüpürürlər. Bunlar bumeranq effekti verməyə bilməz. Qərb, Avropa öz yanlış addımları ilə Türkiyəni, o cümlədən Azərbaycanı özlərindən uzaqlaşdırır. Artıq bunun müəyyən əlamətləri göz önündədir. Ermənistana yaxınlığı ilə seçilən Rusiya "erməni soyqırımı" məsələsində kifayət qədər təmkinlilik nümayiş etdirir. İran da həmçinin. Özünü demokratiyanın, haqq-ədalətin qoruyucusu kimi təqdim edən Avropa isə anti-Türkiyə mövqeyi tutmaqdadır. Avropa Birliyinin, oraya daxil olan dövlətlərin bu hərəkəti, Rusiya və İranın isə təmkinli davranışı Türkiyənin Rusiya və İranla yaxınlaşmasını, yeni ittifaqın meydana gəlməsini reallaşdıra bilər. Türkiyənin Rusiya yaxınlaşması artıq bir faktdır. Bundan əvvəl Rusiya qazının Türkiyə ərazisindən Avropaya ötürülməsi məsələsində müsbət qərar qəbul olundu. Bugünlərdə isə Rusiya Türkiyədə atom elektrik stansiyasının tikilməsi haqqında sazişə imza atdı və stansiyanı 4 ilə işə salacağını öz üzərinə götürdü. Türkiyə Çinin təsis etdiyi Asiya İnfrastruktur və İnkişaf Bankının təsisçilərindən biri oldu. Azərbaycan da artıq ora ərizə verib. İran da həmin banka üz tutub. Bütün bunlar çox ciddi gəlişmələrdir. Yeni regionda yeni maliyyə və güc mənbəyi formalaşır. Mən zənn edirəm ki, İranla Türkiyə Yəmən və Suriya probleminin üstündən aşaraq bir-biri ilə strateji müttəfiqlik əlaqələrini gücləndirə biləcəklər. Bu prosesə artıq Rusiyanın əl qoyduğu hiss olunur. Bu isə o deməkdir ki, Rusiya-Çin-Türkiyə-İran-Azərbaycan müttəfiqliyi əsasında regionun yeni bir güc mərkəzinin formalaşdırılması çox asanlıqla baş verəcək".

**Politoloq vurğuladı ki, dünənə qədər Avropa tək Rusiyanın qarşısında əsirdisə, qeyd edilən ittifaqın qarşısında dayanmaları heç də asan olmayacaq. Qərb bir cırtdan Ermənistandan və terroru özünə peşə seçən ermənilərdən ötrü indiki davranışları ilə gələcəkdə qarşısında böyük bir ittifaqın dayandığının şahidi ola bilər:** "Qərb yanlış siyasətinin acısını mütləq çəkməlidir. Bu gün etdiklərinin yaxın gələcəkdə onların özləri üçün xoşagəlməz nəticələr verdiyinin şahidi olacaqlar".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 81 (6109) 17 aprel 2015

# Uşaqbaz rahiblər, bic doğan rahibələr və gey fahişəliyin ünvanı... - katolik kilsəsi

## Roma katolik kilsəsinin qaranlıq səhifələri barədə bilinməyənlər

**Xəbər verdiyimiz kimi, bir neçə gün əvvəl Romadakı Müqəddəs Pyotr kilsəsində ənənəvi mərasimdə çıxış edən Roma papası Fransisk "erməni soyqırımı"nı XX əsrin ilk soyqırımı adlandırıb. Ayindən sonra Papa erməni liderlərə yazılı mesaj verib. O, Tanrıdan türk və erməni toplumlarının uzlaşmasını, Dağlıq Qarabağ münaqişəsində tezliklə sülhün əldə edilməsini arzuladığını deyib.**




Türk dünyasını sarsıdan bu qalmaqal artıq müxtəlif səviyyələrdə etiraz və bəyanatlarla müşayiət olunur. Bununla paralel, diqqət həm də Roma katolik kilsəsinin tarixindəki utancverici qalmaqal və təqvimlərə damğa vuran iyrənc hekayələrə yönəlib. Türk dünyasına zərbə vuran Roma kilsəsinin tarixi hansı eybəcərliklərlə xatırlanır? Tarixin səhifələrini vərəqlədikcə gördüyümüz hansı mənzərələr bizi şoka salır?

### Vatikan kilsəsi divarları arxasında gey fahişəlik - polis cinayətin üstünü açıb

Heç kimə sirr deyil ki, son illər Vatikanın adı həm də seksual qalmaqallarla yadda qalıb. 2010-cu ildə bunlardan ən səs-küylüsü cəmiyyətə çıxarıldı. Qalmaqalın mərkəzində Roma papası 16-cı Benediktin kamerdineri Ancelo Balduççi və Müqəddəs Pyotr xorunun üzvü Qined Exiyemin adları çəkilirdi. Müqəddəslər müqəddəsi hesab olunan Roma Katolik kilsəsində növbəti qalmaqalın izinə təsadüfən düşmüşdülər. Belə ki, Balduççinin tikinti maxinasiyalarında şübhəli bilən polis onun telefon danışıqlarını izləyib. Polis təsadüfən müqəddəs məkanın divarları arxasında gey-fahişəliyin mövcud olmasının üstünü açıb. Polisin məlumatına görə, 40 yaşlı xor müğənnisi mənşəcə nigeriyalı olan Exiyem telefon danışıqları gedişində Balduççiyə kişilərin seksual xidmətini təklif edib.

Polis ən azı 10-a yaxın belə bir halın olmasından bəhs olunduğunu bildirib. Polisin şübhələrinə görə Exiyem Balduççiyi gənc seminarçılarla təmin edib. "Qardian" qəzeti Balduççi və Exiyem arasındakı telefon danışıqlarında seminarçı tələbələrin Vatikana gəlişinin təşkilindən danışıldığını bildirirdi. Vatikanı sarsıtmış qalmaqalda daha bir italiyalı ittiham olunur.

Xatırladaq ki, sözügedən xorun əsası 6-cı əsrdə qoyulub və o, ancaq Papanın iştirak etdiyi mərasimlərdə oxuyub.

Bir dəfə çıxışında "Bir insan homoseksualsa və yaxşı niyyətlə Tanrını axtarırsa, mən kiməm ki, onu yarğılayım", - deyən Papa Francesco homoseksual hüquqlarına normal yanaşan katolik kilsəsi lideri olaraq tanınır.

### Vatikanın keçmiş səfiri uşaqbazlığa görə ev dustağı olub

Qalmaqallardan ən səs-küylüsü isə 2014-cü ildə baş verib. Həmin vaxt Vatikan keçmiş səfirini ev dustağı etdi. Vatikan bildirdi ki, Dominikan Respublikasında keçmiş səfiri olan 66 yaşlı Josef Wesolowski həbs olunub. Amma yaşı və səhhəti nəzərə alınaraq onu ev dustağı ediblər. 2008-ci ildə Dominikanda vəzifədə olduğu vaxtda pedofiliya - uşaqbazlıq cinayətlərinə onun adı qarışmışdı. Josef Wesolowskinin ruhani rütbəsi hələ iyunda alınıb. Sentyabrın 24-də isə Vatikan cinayət məhkəməsində bu işə dair ilkin dinləmə başlayıb və o, ev dustağına çevrilib.

Vatikanın bəyanatında deyilir ki, Wesolowski səhhətinə dair sənədlər təqdim edib, onu daha sərt şəraitdə saxlamaq mümkün olmayacaq.

Qeyd edək ki, katolik kilsəsi uzun müddət media və hətta bəzi siyasətçilər tərəfindən dünyanın bir çox ölkələrində rahiblərin uşaqbazlıq əməllərini ört-basdır etməkdə ittiham olunurdu. Vatikanın sözçüsü Federico Lombardi bildirirdi ki, Papanın göstərişinə uyğun olaraq, bundan sonra bu cür iddialar tam ciddi və təcili şəkildə araşdırılacaq.




### "Hər 50 katolik keşişdən biri uşaqbazdır" - Fransiskinin etirafı dünyanı silkələyib

Pedofiliya ittihamı hər zaman Roma katolik kilsəsinin "Axilles dabanı" olub. 2014-cü ilin iyun ayında isə bu mövzu ilə bağlı qalmaqallı bir açıqlama yayılıb. **"Məndə olan dəqiq məlumatlara görə, hər 50 katolik keşişdən biri uşaqbazdır. Əfsuslar olsun ki, kilsə uşaqbazlıq iyrəncliyinə tutulub"**. Roma katolik kilsəsinin rəhbəri Papa 1-ci Fransiskin bu açıqlaması "bomba partlayışı" effekti yaradıb. İtaliyanın "La Repubblica" qəzetinə verdiyi müsahibəsində Vatikanın rəhbəri uşaqlara qarşı zorakılıq və təcavüzü kilsənin mübtəla olduğu cüzam adlandırıb. "Müşavirlərimin dediklərinə görə, keşişlərin 2 faizi uşaqbazdır. Bu bəlaya qarşı bacardığım qədər sərt mübarizə aparacağam. Həmin 2 faiz arasında keşişlər, yepiskoplar, kardinallar var. Bəladan xəbərdar olan, amma susan keşişlərin sayı daha çoxdur", - Roma Papası deyib. 1-ci Fransiskin sözlərindən belə çıxır ki, hazırda katolik kilsəsində ən azı 8 min uşaqbaz, əxlaqsız keşiş var.

### Roma papası uşaqbazları niyə qoruyub?

2010-cu ildə isə Roma papası Benedikt 90-cı illərdə uşaqlarla cinsi ünsiyyətdə olmaqda şübhəli bilinən amerikalı keşişə qarşı tədbir görməməkdə ittiham edilib. O zaman kardinal Cozef Ratzinger olan Benedikt seksual cinayətləri təhqiq edən Vatikan idarəsinin rəhbəri idi. Həmin vaxt "Nyu York Tayms" yazmışdı ki, papa Benedikt bu işlə bağlı iki məktuba cavab verməyib. Keşiş Lorens Mörfi səhhətinin pis olmasını səbəb gətirəndə onun üzərində kilsə məhkəməsi dayandırılıb. Vatikan sözçüsü bu hadisəni faciəvi adlandıraraq, Kilsə qanunlarında avtomatik cəzalandırmanın nəzərdə tutulmadığını səbəb gətirib.

### Çirkli pulların yuyulduğu, korrupsiya ocağı - Vatikan kilsəsi...

Vatikan qalmaqallarından danışıb, 2012-ci ildə yaşananları unutmaq olmaz. Vatikan sözügedən tarixdə son 200 ildə ilk dəfə olaraq belə sərt ittihamlarla qarşılaşmışdı. Dünyanın müxtəlif ölkələrində katolik keşişlərin azyaşlılarl zorlamaları ilə bağlı yüzlərlə faktların aşkarlanması belə, Roma Katolik Kilsəsini belə şoka salmamışdı. Səbəb isə Vatikanın narkotik maddələr, insan və silah alverindən əldə edilən çirkli pulların "yuyulduğu" məkanlardan biri sayılması idi. Xatırladaq ki, həmin tarixdə ABŞ Dövlət Departamentinin "Narkotik vasitələrin dövriyyəsinə beynəlxalq nəzarət strategiyası" *(International Narcotics Control Strategy)* hesabatında Vatikana qarşı həddən artıq ağır ittihamlar irəli sürülmüşdü. Hesabatda narkotik maddələr, silah və insan alverindən əldə edilən pulların yuyulması ilə bağlı əməliyyatların hazırda dünyanın 68 ölkəsində həyata keçirildiyi vurğulanırdı. Belə ölkələr arasında Yəmən, Əlcəzair, Şimali Koreya və Vatikanın "xüsusilə fəal" olduğu bildirilirdi. Amerikalılar hesab edirlər ki, İtaliyanın paytaxtı Romanın mərkəzindəki cırtdan dövlətə nəhəng həcmdə nağd pullar və maliyyə vəsaiti axını var. Bu axında çirkli pulların yuyulması prosedurları isə yetərli səviyyədə deyil.

Roma papası XVI Benedikt çirkli pulların yuyulması ilə mübarizənin gücləndirilməsini xüsusi bulla imzalayaraq "ən vacib işlərdən biri" saydığını bildirsə də, amerikalılar həmin mübarizənin effektivliyinə şübhə etmişdilər. Hesabat Vatikanın məxfi sənədlərinin internetə sızması və bu qalmaqalın "Vatileaks" adlanmasından bir neçə həftə sonra açıqlanıb.

Roma Prokurorluğu Vatikan bankındakı bir neçə hesaba məxfi şəkildə pulların yatırılması, o cümlədən kimə məxsus olduğu açıqlanmayan iki hesabda 23 milyon avronun olmasını araşdırıb və korrupsiya faktlarını üzə çıxarıb. Vatikan bankının rəhbəri Ettore Qotti Tedeski və bankın icraçı direktoru Paolo Çipriani həbs olunublar.

### Katolik kilsədə hamilə rahibə... lər....

2014-cü ilin yanvarında Roma Katolik Kilsəsində nadir və böyük qalmaqal yaradan olaylardan biri baş verib. 33 yaşlı rahibə Roksana Rodriges hamilə qalıb və ana olub. Katolik kilsəsinin qaydalarına görə, rahibələrin ərə getmək hüquqları əsla yoxdur və onlar "İsa Məsihin gəlinləri" sayılırlar. Əslən Salvadorun paytaxtı San-Salvadordan olan rahibə Roma yaxınlığındakı klinikada övladını dünyaya gətirib.

"İsa Məsihin kiçik şagirdləri" (Little Disciples of Jesus) kilsəsinin rahibəsi olan Roksananın dediyinə görə, hamilə qaldığından xəbərsiz olub.

Qarnındakı kəskin ağrılar, ürəkbulanma, başgicəllənmədən şikayətlərlə xəstəxanaya aparılmış Roksana Rodriges ilkin müayinəyə məruz qalarkən onda doğuş sancılarının başlandığı müəyyənləşdirilib.

**"Bu xanımı xəstəxanaya gətirən təcili yardım qrupunun dediyinə görə, monastırda ibadət zamanı rahibə Roksana qəflətən qarnını tutaraq yerə yıxılıb. Müayinə onun hamiləliyin son dövründə olduğunu, doğuş sancılarının tutduğunu göstərdi"**, - xəstəxananın həkimləri deyiblər.

Tarixi qaynaqlar göstərir ki, Vatikan kilsəsinin tarixində "hamilə rahibələr", "bic doğan rahibələr"lə bağlı dosyelər yetərincə qabarıqdır.

Belə bir ənənəsi olan kilsənin ermənilərə sahib çıxması və onların olmayan "soyqırımı"na dəstək verməsi, bəlkə də məntiqidir...

❑ **Sevinc TELMANQIZI**

# Şücaət nümunələri



**Samir SARI**

**Bu həftə ölkədə, daha dəqiqi, paytaxtda iki maraqlı hadisə baş verib, bir-biri ilə heç bir əlaqəsi yoxdur. Yeganə uyğunluq odur ki, hər iki hadisə özlüyündə igidlik nümunəsi sayıla bilər.**

Biri odur ki, deputat Fərəc Quliyev aprelin 24-də toy çaldıracaq.

Əlbəttə, ilin hansı gününəsə toy salınmasının, prinsipcə, igidlik aktı olduğunu iddia etmək olmaz, ancaq ortada milli məsələ olanda vəziyyət dəyişir.

Elə günlər var ki, həmin gün toy edənlər kütləvi şəkildə qınanır. Məsələn, bu ölkədə heç kəs yanvarın 20-də, fevralın 26-da toy eləməz. Səbəbini bilənlər bilir, bilməyənlərə isə izahat verməyə dəyməz.

Hətta elə günlər var ki, adamlar bilmədən həmin günə toy salır, axşam kəlbəcərli (ağdamlı, füzulili, cəbrayıllı) qonaqları gəlməyəndə deyir, bay, bu gün Kəlbəcərin (Ağdamın, Füzulinin, Cəbrayılın) işğal günüymüş, yəqin ona görə gəlməyiblər.

Əslində, həmin günlərdə toya getmək ictimai-siyasi prizmadan baxanda düzgün deyil. Olarsan siyasətçi, ictimai xadim, jurnalist, bilməzsən işğal günlərində toya gedərsən, şəklini çəkib mediaya ötürər, altına da yazarlar: "Baxın, başqa vaxt vətəndən, millətdən danışır, amma ... rayonun işğal günündə toyda yeyib-içir, deyib-gülür, kef edir".

Olmazmı? Olar, dünya kompromat və şantaj dünyasıdır. Adam tanıyıram elə günlərdə toya gedəndə axıradək əzizinin cümə axşamında oturmuş kimi oturur ki, nə olar, nə olmaz, şəklini çəkib yaysalar da, heç olmasa, kədərli düşsün, izahat verməyə sözü olsun.

Amma budur, deputat bilə-bilə aprelin 24-nə toy salıb. Bu, ermənilərə meydan oxumaqdır, yandıq verməkdir. Axı ermənilər 24 apreli "soyqırım günü" elan ediblər. Həmin gün deputatımız və onun qonaqları yeyib-içəcək, gülüb-əylənəcək, qəvi düşmənlərə zərbə vuracaqlar.

Dünyanın gərdişi belə davam etsə, bir müddətdən sonra aprelin 24-nə salınmış toyda çəkilmiş şəkillər fəxarət mənbəyi olacaq. Adamlar onu bir-birinə göstərib nə dərəcədə vətənpərvər olduqlarını isbat edəcək, deyəcəklər: "Sən elə-belə adamla danışmırsan ey. Mən aprelin 24-də toyda yeyib-içmiş, deyib-gülmüş adamam, mənim vətənpərvərliyimə heç kim şübhə edə bilməz".

Ancaq dünyadır də, birdən ermənilərı də, bizi də yenidən ağuşuna alan yekə bir imperiya yaransa və hər iki düşmən xalqa yenidən dost olmağı əmr etsələr, düşmənçilik təbliğatını yasaqlacaqlar, onda 24 apreldə çalınmış toyda çəkilmiş şəkillər kompromata dönəcək. Neo-mərdiməzarlar həmin şəkilləri lazımi orqanlara servis edərək yazacaqlar ki, bu, 24 apreldə toyda oynamış filankəsin oğludur, bunlar nəsillikcə xalqlar dostluğuna zərbə vuran adamlardır. Belələrindən deputat olmaz.

Heç bilirsiniz, 37-ci il repressiyasında nə qədər milli vətənpərvərlər belə-belə şeylərin güdazına gediblər?

***

İkinci qəhrəmanlıq nümunəsi isə "Memar Əcəmi" metro stansiyasının həndəvərində baş verib. Üç gündür media və ictimaiyyət bundan danışır, həm də təkcə danışmır, şücaətin videosunu bir-birinə göstərir.

Hadisə bundan ibarətdir: bir qız küçədə ona söz atan oğlanı döyür, üzünə sillə, qasığına diz zərbəsi endirir.

Xalq manyak oğlanı cəzalandıran qızın tərəfindədir. Kütləvi şəkildə. Hətta belə şərhlərə də rast gəlmək olar: "Qız oğlanı eşşək qədər döydü"; "Qıza sataşan oğlanı çırpdılar" və sair və ilaxır.

Hadisə hamıya ləzzət edib. Əslində mən də döyülən oğlanın tərəfində deyiləm, təfərrüatı bilməsəm də, əminəm ki, qız xeylağı heç bir oğlanı durduğu yerdə döyməz, deməli, nəsə bir söz deyib, bir şey yeyib ki, döyülüb.

Ancaq ona da əminəm ki, qızın bu hərəkətini bəyənənlər, alqışlayanlar arasında vaxtilə özləri də qızlara söz atanlar, ancaq qız tərəfindən döyülməyənlər var. Ola bilər ki, bəzilərinin bəxti gətirməyib, söz atılan qızın qardaşı və ya nişanlısı tərəfindən şillələniblər. İndi onlar da daxil, hamı qızı alqışlayır.

Hər halda, xalq belə hadisələrin davamını istəyir. Küçələrdə xalqın uşağını narahat və təhqir edən sapıqların, manyakların qabağını alsa-alsa, qasığa təpik atmaqdan qorxmayan qızlar alacaq.

YENİ MÜSAVAT
N 81 (6109) 17 aprel 2015




# Üç aylıq mənəvi səfərin birinci ayı

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Qarşıdan, inşəallah, üçaylıq gəlir - Rəcəb, Şəban və mübarək Ramazan ayları. Bu, son dərəcə mənəvi yüklü bir səfərdir. Bu səfərdə mənəvi kamilləşmə üçün böyük fürsətlər vardır. Bu aylardan əvvəlincisi mübarək Rəcəb ayıdır. Rəcəb ayı - Allah qonaqlığı üçün səfərə hazırlıq aylarından birincisidir. Bu ay - tövbə diləmə, bağışlanma istəmə, ləyaqət və şərafət əldə etmə, yalandan, qeybətdən, böhtandan, sui-zəndən, digər qəlbi mərəzlərdən müalicə olunma ayıdır. Uca Allahdan istəyimiz budur ki, bu mübarək ayın əməllərindən bəhrələnməyi hamımıza nəsib etsin. Allah Təala bu mübarək ayda mənəvi yüksəliş əldə etməyi bütün diləyənlərə qismət etsin, inşəallah!**

## Haradadır Rəcəb əhli?

Rəcəb ayı ilə bağlı gələn mübarək çatdırışlar o qədər heyrətə gətirəndir ki, bunların özünün qavranılması ayrıca bir prosesdir. İmam Cəfər Sadiqin (ə) rəcəb ayının əhli haqqında çox gözəl buyuruşları var. Rəcəb ayının əhli kimlərdir? O kəslərdir ki, rəcəb ayının nə olduğunu bilir. Rəcəb ayının ehtiramını qoruyur. Rəcəb ayında oxunulası zikrləri, duaları, görüləsi əməlləri yaşadır. Və o qədər rəcəb ayıyla yaşayır ki, bunlara Irəcəbiyyun» - "rəcəb əhli" deyirlər. Bu şəxs rəcəbdə olan, rəcəblə həmahəng yaşayan bir adam kimi yaşayar. Hətta bu adam rəcəb əhli kimi Qiyamət günü bir axtarılar, sorular, çağırılar da. Qiyamət günü hamı nigaran, səksəkəli olan bir halda rəcəb əhlini bir axtararlar, çağırarlar. Rəcəb ayının əhlinə Qiyamət səhnəsində müraciət mövzusunda İmam Sadiq (ə) buyurur: "Qiyamət yetişən zaman İlahi carçı fəryad çəkər: "Eynər-racəbiyyun? "haradadır Rəcəb ayının əhli?"" Haradadır o kəslər ki, rəcəb ayını əziz tutdular və ondan bəhrə apardılar?...».

Qiyamət səhnəsi - hər bir imanlının narahatçılıqla gözlədiyi səhnədir. Və rəcəb ayı - o aydır ki, həmin səhnə üçün hazırlıqlı getməyi insana qismət edir.

Rəcəb ayının əhlinin özəl bir xüsusiyyəti olar. O qədər rəcəb ayının mübarəkliyindən faydalanar rəcəb əhli ki, Qiyamət günü məhşərə nur saçar... İmam Sadiq (ə) buyurur: **"Və o böyük cəmdən insanlardan bir qrup ayağa qalxar ki, onların simasının nuru məhşəri işıqlandırar və nuraniyyət verər".**

İnsan rəcəb ayının əhli olsa, rəcəb ayını tanısa, "rəcəbiyyun" kimi yaşasa, Qiyamət günü başında həqiqi sultanlıq tacları olar. İmam Sadiq (ə) buyurur: **"Bu insanların başlarında dürr və yaqutla zinətlənmiş sultanlıq tacları olar".**

Bir var insanların əldəqayırma tacları, müvəqqəti, ötəri tacları olsun.



Heç bir gerçək dəyəri olmayan bir məqamı, dərəcəsi olsun. Bir də var Allahın lütfü, inayəti ilə, xüsusi diqqəti ilə insan o vəziyyətə çatsın ki, mənəvi sultanlıq ona qismət olsun.

## Şirin çağırış

Bəli, o gün ki, Qiyamətdə hamı öz vəziyyəti barədə narahatdır, insanlar təşviş içindədir - o an bizə təsvir edilir. Burada şirin bir müraciət var: "Haradadır rəcəb ayının əhli?" Haradadır rəcəb ayını dərk edənlər? Haradadır rəcəbin izzətini yaşadanlar? Hanı o kəslər ki, rəcəb ayına layiqdirlər? - belə şirin müraciətlər var burada.

Baxın, simvolik bir dildə, insan idrakının anlaya biləcəyi bir dildə bizlərə bu ayın böyüklüyü çatdırılır. Arxasında böyük mətləblərin bəlli olduğu bildirilən bir kateqoriya ilə təmas sezilir burada.

Görün nə böyüklükdə məqamdır ki, mələk insana belə müraciət edir. Bu, rəcəb ayının məqamını üstün bilib, onun ehtiramını saxlayanlar üçündür.

Rəcəb ayında fövqəladə fürsətlər var. Vücudi xilas üçün fürsətlər. İnsan olaraq öz missiyasını dərk edib, həyata keçirmək üçün fürsətlər. Həzrət Peyğəmbər (s) və Əhl-beytinin (ə) bulağından bəhrələnənlər bu fürsəti görə bilir və ondan yararlana bilir.

Rəcəb ayında rəhmət qapıları açılır. Eyni əməl ki, başqa aylarda bir cür effekt verirdi, bu ayda qat-qat güclü təsir buraxır. Qat-qat üstün nəticələrə gətirib çıxarır. Bu həqiqətləri dildə və qəlbdə iqrar edənlərə aiddir bu nemətlərdən faydalanmaq imkanı. Elə də ola bilir ki, bu cür böyük nemətlər kiminsə yanından keçir, amma o, heç fərqinə belə varmır. Allah insanı belə durumdan saxlasın.

Qiyamət günü mələklər rəcəb ayının əhlini əhatəyə alar, qarşılayar və onlara təbrik deyərlər. İmam Sadiq (ə) buyurur: **"Onların hər birinin sağ tərəfində min mələk və sol tərəfində min mələk onlara deyərlər: "Ey Allahın bəndəsi! Xoş gəlmisən! Allahın sənə əta etdiyi sənin üzərinə mübarək olsun!""**

Rəcəb ayı ilə bağlı İmam Cəfər Sadiqin (ə) buyuruşunda bir səhnə var ki, Allahın rəcəb əhlini əhsənləməsi, onların layiq olduğu vəziyyətə uyğun onları mükafatlandırması burada təsvir olunur. İmam Sadiq (ə) buyurur: **"Bu zaman Allah Təala tərəfindən nida gələr: "Ey mənim kişi və qadın bəndələrim! İzzət və cəlalıma and olsun ki, sizin mübarək məqamınızı əziz tutacağam və sizə çoxlu sayda ətalar bəxş edəcəyəm və sizə behiştdə saraylar verəcəyəm ki, orada çaylar axır. Və orada əbədi qalacaqsınız...".**

Davamında rəcəb ayının əhlinə xas cəhətlərə işarə olunur. Onların çalışmaqlığına, könüllülüyünə xüsusi vurğu edilir: **"Və nə gözəl mükafatdır o kəslər üçün ki, çalışmışdırlar. Siz könüllü surətdə - Mənim xatirimə, bir ayda ki, onun hörmətini uca tutdum və haqqının riayət olunmasını vacib bildim - oruc tutdunuz. Ey mənim mələklərim! Bu kişi və qadın bəndələrimi behiştə aparınız!"**

Fikir verək. Çalışmaqlıq və könüllülük. Yəni rəcəb ayında bir adam çalışsa, səy göstərsə, könüllü olaraq o ayın əməllərinə sahib çıxsa - bu 2 keyfiyyət insanı İlahi rəhmətin ona aid olmasına aparıb çıxarar.

## Rəcəb ayının orucu

Allah Təalanın mərhəməti o qədər genişdir ki, hətta ixlasla bircə gün rəcəb ayında oruc tutana da öz mükafatını şamil edir. Rəcəb ayında hətta bir gün orucun malik olduğu fəziləti təsvir edən hədisdə İmam Sadiq (ə) buyurur: **"Bu mükafat o kəs üçündür ki, bu ayın bir miqdarında oruc tutsun. Və hətta 1 gün olsa da belə: əvvəlində, ortasında və ya axırında".**

Soruşula bilər ki, 1 gün oruc tutmağa nə var ki? Amma həmin 1 günlərdən başlayır hər şey. Məhz o 1 günlərdir ki, insanı ya Allaha bəndəliyə aparır, ya da zülmə və azğınlığa. Rəcəb ayının 1 günündən belə kamil bəhrələnə bilsə, bu günü tam dərk edib, onun fəzilətlərinə sahib çıxa bilsə - xoş o insanın halına.

## Zikrlərin müqabilində şəhidlərin savabı verilən ay

Əziz İslam Peyğəmbərinin (s) bu ayla bağlı çox mübarək buyuruşları və tövsiyələri var. Bunlar arasında, Rəcəb ayının əməlləri, zikrləri daha böyük yer tutur. Əziz Peyğəmbərimiz (s) buyurur: "**Hər kim Rəcəb ayında 100 dəfə "Əstəğfirullahəl-ləzi lə iləhə illə huvə vəhdəhu lə şərikə ləhu və ətubu iləyh" desə və oxuduğu bu duanı sədəqə ilə xətm etsə, Allah da onun vəziyyətini rəhmət və məğfirətlə xətm edər və hər kim bu zikri 400 dəfə desə, onun üçün 100 şəhidin savabını yazarlar".**

Mənası belədir ki, "bir Kəsdən bağışlanmaq diləyirəm ki, Ondan başqa ibadət ediləcək bir məbud yoxdur, O, təkdir, şəriki yoxdur və qayıdış Ona doğrudur".

Gör necə bir ayda yaşayırıq ki, bu ayın ən sadə əməllərini yerinə yetirməyin müqabilində insana 100 şəhidin savabı yazılar. Adətən insan belə bir ayın qədrini həmin ay keçəndən sonra bilir. O zaman ki, ondan layiqincə bəhrələnə bilib-bilmədiyinin hesabatını aparır.

## Bağışlanmaq ayı

Bəli, belə bir ayda yaşayırıq. İmam Sadiqdən (ə) nəql edirlər ki, Rəsulullah (ə) belə buyurub: **"Rəcəb ayı - mənim ümmətimin tövbə ayıdır. Bəs bu ayda çoxlu sayda bağışlanmaq diləyin ki, Allah Təala bağışlayan və mehribandır".**

Bu ay oruc ayı olmaqla yanaşı, eyni zamanda istiğfar ayıdır. Yəni elə bir aydır ki, bu ayda əməllər, dualar, Allahla rabitə yaratmaq üçün fövqəl dərəcədə böyük imkanlar var. Bu ayda bir zikr var ki, insan həmin zikri bu ay ərzində nə qədər çox desə, insanın aqibəti üçün o qədər xeyirlidir. Bu zikr, insanın istiğfar etməsi, tövbə etməsi üçün imkan yaradır. Zikr belədir: "Əstəğfirullahə və əs-əluhut tövbəh", yəni "İlahi, Pərvərdigara, Səndən bağışlanma, istiğfar diləyirik və qayıdış istəyirik!". Buradan aydın olur ki, insan bu ayda özünü Allah dərgahına qayıtmasına, tövbə etməsinə, Allahdan bağışlanma diləməsinə həsr etməlidir. Göstərilən bu cümlə - ayın həqiqi mahiyyətini açmaq üçün ən gözəl vasitələrdəndir.

Uca Allahın belə bir geniş rəhməti, mərhəməti vardır. Allah Təala Öz bəndəsini o qədər sevir ki, bəndəsinin layiq olduğundan qat-qat artıq lütflər edir ona. Sanki Yaradan bir bəhanə arayır ki, bəndəsini bağışlasın, bəndəsinə lütflər əta etsin.

Rəcəb - paklanma ayıdır. Rəcəb - özünəqayıdış ayıdır. Rəcəb bir aydır ki, insan özünə, öz nəfsinə sanki deyir: "Dayan! Mən neçə aydır sənin qulun olmuşam, amma bəsdir, ey nəfs, yetər!" Rəcəb ayı insanı robotlaşmadan, cılızlaşmadan çıxara bilən bir aydır. Rəcəb ayı bir aydır ki, hamımızın şikayətləndiyi bir xəstəlikdən bizi müalicə edə bilər. Bu gün dünya şikayətlənir, deyir biz itiririk özümüzü. Biz öz varlığımızı itiririk, biz öz vücudumuzu itiririk. Biz sanki günbəgün insanlıq şəklindən çıxırıq. Biz sanki günbəgün yaranmışların əşrəfi olmaq durumundan ayrılırıq.

Bu Rəcəb ayı - həmin o müalicə ayıdır. Bizlər rəcəbə doğru bir addım atmaqla, özümüzü bu aya daxil etmiş oluruq. Bir addım atsaq, bu ay bizim böyrümüzdən ötüb keçməz. Özümüzü rəcəbə daxil etməklə, günahlardan təmizlənməyə, özümüzü hərtərəfli təftiş etməyə aid etmiş oluruq.

## Rəcəb ayının əməlləri

Rəcab ayının ilk cüməsinin gecəsi *(yəni Rəcəbin ilk cümə axşamından ilk cüməsinə keçən gecə)* "Leylətul-rəğaib" adlanır. Bu gecəni ibadət və dualarla keçirmək tövsiyə olunub. Bu gecənin fəzilətləri sadalanmaqla bitməz. Həzrət Peyğəmbərdən (s) bu gecə ilə bağlı nəql edirlər: "Rəcəb ayının birinci cümə gecəsindən qafil olmayın. Mələklər o gecəni "Ləylətul-rəğaib» adlandırırlar. Elə ki, həmin gecənin üçdə biri keçər, elə bir mələk olmaz ki, Kəbə-müşərrəfəyə gəlməsin. O zaman Allah Təala Öz mərhəmətli nəzərini onlara yönəldər və buyurar: "Mələklərim! Hər nə hacətiniz varsa, Məndən istəyin!» Mələklər deyər: "Hacət və istəyimiz budur ki, Rəcəb aynın oruc tutanlarını bağışlayasan». Və Allah Təala buyurar: "Bağışladım!"".

Rəcəb ayının əvvəl, orta və axır günlərində qüsl almaq müstəhəbdir və bu əməl günahların bağışlanmasına səbəb olar.

Rəcəb ayının bütün günləri oruc tutmaq müstəhəbdir və günahların bağışlanmasına səbəb olar. Hər kəs də qismət olan miqdarda bu günlərdən bəhrələnə bilər.

Rəcəb ayında ən azı 3 gün oruc tutmağın çox böyük fəziləti vardır. O kəslər ki, Rəcəb ayında oruc tutmaq imkanları yoxdur, onun yerinə sədəqə versinlər *(imkanları çərçivəsində)*. Oruc tutmağa və sədəqə verməyə imkanı olmayan insanlar, əvəzində zikrlər deyə bilərlər.

Rəcəb ayında Məsumların (ə) mübarək hərəmlərini ziyarət etməyin böyük fəziləti vardır.

Rəcəb ayında tövbə və istiğfar etməyin və təhlil *("Lə iləhə illəllah")* deməyin böyük fəziləti vardır.

Rəcəbin 15-nin gecəsində *(14-dən 15-nə keçən gecə)* 12 rükət namaz ricaən (qəbul olma ümidi) niyyəti ilə qılmaq bəyənilmişdir;

Rəcəb ayının 15-də qüsl almaq, oruc tutmaq, İmam Hüseyni (ə) ziyarət etmək - bəyənilmiş əməllərdəndir.

Həzrət Rəsulullahdan (s) nəql edilir: **"Hər kim rəcəb ayında 100 dəfə söyləyə: "Əstəğfirullahəl - ləzi lə iləhə illə huvə vəhdəhu lə şərikə ləhu və ətubu iləyh" və oxuduğu duanı sədəqə ilə xətm edə (sonlandırsa), Allah Təala da onun durumunu rəhmət və bağışlama ilə xətm edər. Və hər kim (bu zikri) 400 dəfə desə, onun üçün 100 şəhidin savabı yazılar".**

Rəcəb ayında çox deyilməsi tövsiyə edilən zikrlərdən: "Əstəğfirullahə və əs-əluhut-təvbəh"

## Rəcəb ayı ilə bağlı tarixi səhifələr

Rəcəb ayının 1-i hicri 57-ci il - 5-ci imam - İmam Muhəmməd Baqirin (ə) mübarək mövludu günüdür.

Rəcəb ayının 3-ü hicri 254-cü il - 10-cu imam - İmam Hadi (ə) (Əliyyən-Nəqi (ə)) şəhadətə yetişmişdir.

Rəcəb ayının 8-i hicri 20-ci il - İslam dininin Misirə gəldiyi gündür.

Rəcəb ayının 10-u hicri 195-ci il - İmam Muhəmməd Təqinin (ə) (müsəlmanlar bu mübarək şəxsi, İmam Cavad (ə) adı ilə də tanıyırlar) mübarək mövludu günüdür.

Rəcəb ayının 12-i hicri 36-cı il - Həzrət Əli (ə) Kufə şəhərinə daxil olmuş və buranı xilafətin paytaxtı kimi müəyyənləşdirmişdir.

Rəcəb ayının 13-ü hicrətdən 23 il öncə Məkkə şəhərində, Kəbə evində Əmirəlmöminin Həzrət Əli (ə) dünyaya gəlmişdir.

Rəcəb ayının 19-u, 9-cu hicri ilində, Təbuk qəzvəsi baş vermişdir. Gənc İslam qoşunu, Rum imperiyasının təcavüzünün qarşısını almaq üçün, Rəsuli-Əkrəmin (s) başçılığı altında, Mədinə şəhərindən Ərəbistan yarımadasının şimalınadək yürüş etmiş, İslamın qüdrət və əzəmətini bütün ərəb tayfalarına nümayiş etmişdi.

Rəcəb ayının 20-si, 13-cü hicri ilində müsəlman mücahidlərilə Rum imperiyası arasında Yərmuk döyüşü baş vermişdir.

Rəcəb ayının 24-ü, 7-ci hicri ilində, mühüm strateji əhəmiyyətə malik olan Xeybər qalası müsəlmanlar tərəfindən fəth edilmişdir.

Rəcəb ayının 25-i, hicri 183-cü ildə, müsəlmanların 7-ci İmamı - Həzrət Museyi-Kazım (ə), dövrün xəlifəsi qəsbkar Harun-ər-Rəşid tərfindən zəhərlənərək, şəhadətə yetişmişdir. Mübarək hərəmi Kazimeyn şəhərindədir. İmamı (ə) ziyarət etməyə əli çatmayanlar, onun qızlarının Vətənimizdə - Nardaranda və Bibi-Heybətdə olan məqbərələrini ziyarət edə bilərlər.

Rəcəb ayının 27-də, hicrətdən 13 il öncə - Həzrət Muhəmməd ibn Abdullaha (s) peyğəmbərliyin verilməsi günü - Məbəs günüdür. Bu gündə oruc tutmaq çox müstəhəbdir.

Rəcəbin 28-i, hicrətin 60-cı ilində İmam Hüseyn (ə) Mədinədən Məkkəyə doğru hərəkət etmişdir. Bu - Aşura salnaməsi ilə sonlanan, xilafəti qəsb etmiş zalım Yezid istibdadına qarşı mübarizə hərəkatının başlanğıcı idi. Azsaylı tərəfdarları ilə İslamı yaşadan, zülmə, rəzilliyə Iyox!» deyən İmam Hüseyn (ə), bu yenilməz mübarizəsilə misilsiz qəhrəmanlıq məktəbinin əsasını qoymuşdur.

**Allahım! Bizlərə Rəcəbin fəzilətlərini dərk etməyi və əməldə yaşatmağı nəsib et!**

**Allahım! Bizləri Rəcəb əhlindən qərar ver! Amin!**

YENİ MÜSAVAT
N 81 (6109) 17 aprel 2015

# Toy və yaslardakı israfçılığa niyə son qoyulmadı?

## **Fazil Mustafa:** “Məsələyə rəsmi şəkildə münasibət bildirilməlidir”

## **Psixoloq:** “Rayonlarda insanlar yası ətlə yola verə bilmirsə, onu qınaq obyektinə çevirirlər”

**Yas və toy mərasimləri zamanı həddindən artıq ifrata və israfçılığa yol verilməsi yenidən müzakirə mövzusuna çevrilib. Yas mərasimlərində hüzr sahibi tərəfindən verilən ehsan süfrəsinin rəngarəngliyi və çeşid müxtəlifliyi demək olar ki, toy süfrələrini xatırladır. Bir müddət əvvəl toy və yaslardakı israfçılığın qarşısını almaq məqsədi ilə bir kampaniyaya start verildi. Düzdür, bu kampaniya çoxlarının ürəyindən xəbər versə də, narazı olanlar, gizli-gizli ehsan süfrələri açanlar da oldu. Bu kampaniya sayəsində müəyyən qədər müsbət dəyişikliklər olsa da, bu çox çəkmədi.**

Qeyd edək ki, xarici ölkələrdə, eləcə də qonşu Türkiyədə toy və yas mərasimləri çox sadə keçirilir. Toy mərasimlərində süfrədə şirniyyatdan başqa qidalar yer almır. Eləcə də yas süfrəsində yalnız ehsan halvası hazırlanır.

Maraqlıdır, Azərbaycanda da nə vaxtsa bu cür sadə toy və yas mərasimləri keçirilə bilərmi? Ümumiyyətlə, israfçılığın qarşısını almaq üçün nə etmək lazımdır?

Deputat Fazil Mustafa bildirdi ki, məsələyə rəsmi şəkildə münasibət bildirilməlidir: “Bu məsələlərin həlli daha fərqli formada olmalı idi. Amma şadlıq evləri himayə altında olduğuna görə hər hansı bir dəyişiklik etmək mümkün olmadı. Çünki şadlıq evləri məmurların qazanc sektoru olduğuna görə bu sahədə düzəliş etmək çətindir. Digər tərəfdən, insanlar toyunu etməlidir, ancaq alternativ yoxdur. Şadlıq evlərində deyirlər ki, bizdə bu yeməklərdi. İnsan səhhəti üçün zərərli olan hər şeyi toy süfrələrinə yığırlar. Bu çox acınacaqlıdır. Ancaq reallıq budur ki, alternativ verilməsə, sadə insanların toyunu qeyd etməsi üçün şərait yaradılmasa, insanlar hazırkı şərtlərlə razılaşmalı olacaq. Bundan başqa, məsələyə rəsmi şəkildə münasibət bildirilməlidir. Rəsmi şəkildə bu soyğunçuluğun və vəhşiliyin qarşısı alınmalıdır. Əks halda, çox böyük problemlər olacaq”.

**Yaslardakı israfçılığa gəlincə, deputat bunun insanların səviyyəsi ilə əlaqəli bir məsələ olduğunu dedi:** “Azərbaycanda insanlara başa sala bilmirsən ki, özünü zəhmətə salıb, borc-xərcə girib bu qədər vəsait sərf etməyə dəyməz. Hamı başqasının gözünə özünü soxmaq naminə yaşadığı üçün çox çətindir. Yəni insana izah etməlisən ki, filan məsələ olar və ya vacib deyil. İnsanlar bunu başa düşmək istəmir. Ona görə də israfçılığın qarşısını almaq çox çətin bir məsələdir”.



**Psixoloq Dəyanət Rzayev bildirdi ki, ilk öncə insanların düşüncə tərzini dəyişməliyik:** “Tutaq ki, kiminsə valideyni dünyasını dəyişib. Həmin övlad sağlığında həmin valideynə yaxşı baxa bilmədiyi üçün onda belə bir düşüncə yaranır ki, yası yaxşı yola verim, günahım qismən azalsın. Düşünürəm ki, insanlara yasların keçirməsinə müdaxilə etmək, stolun üstünə nəyi qoy, nəyi qoyma demək düzgün deyil. Xüsusən də rayonlarda insanlar yası ətlə yola verə bilmirsə, onu qınaq obyektinə çevirirlər. Hətta elə insanlar var ki, qınaq obyektinə çevrilməmək üçün aparıb axırıncı pulunu da yasa qoyur. Bizdə ölülərə daha çox üstünlük verirlər, nəinki dirilərə. Biz ölüyə bir baş daşı qoyuruq ki, onun qiyməti 2 min, bəzənsə 10 min manat olur. Halbuki həmin pulu sağlığında o adama xərcləsəydilər, bəlkə də ölməzdi. Deməli ki, ilk öncə insanların düşüncə tərzini dəyişmək lazımdır. İnsanlar təmtəraqlı ehsan verməməyi özlərində kompleks etməməlidir. Biz yaşadığımız kimi geyinmirik. Baxırıq ki, kiminsə evi yoxdur, amma gedib bahalı maşın alır. Bu bizim mentalitetin böyük bir kompleksidir. Biz özümüzü ağılla yox, geyimlə, maşınla, qızılla, bahalı, təmtəraqlı toylarla, yası yola verməklə təsdiq etmək istəyirik. Bu bizim daxilimizdən gəlir. Biz bütün bunları hansısa qanunla ya əmrlə dəyişə bilmərik”.

**Toyların əslində əylənmək üçün olduğunu deyən psixoloq Azərbaycan toylarında bunun mümkünsüz olduğunu bildirdi:** “İnsanlar toya yemək yeri kimi baxmamalıdır. Evdə yaxşıca yeyib gəlməli, toyda yalnız şirniyyat yeyib, şampan içərək əylənməlidir. Bu da insanların öz təşəbbüsündən asılıdır. Kimsə şampan və şirniyyatla toy etmək istədiyini desə belə kənardan sizə bunu etməyə imkan verməyəcəklər ki, camaat nə deyər. Biz özümüz üçün yox, camaat nə deyər üçün yaşayırıq”.

Qeyd edək ki, İslam dinində də israfçılıq günah hesab edilir. Quranda yemək-içmək barəsində ayə var ki, yeyin-için, israf etməyin, deyilir. Yasda ehsan yemək israf deyil, amma bir neçə yeməyin verilməsi israfdır. Süfrəyə artıq bir- iki yemək qoyulması israf sayılmır. Amma eyni vaxtda, ondan artıq növ yeməyin verilməsi həddən çox israfa yol vermək deməkdir. Bəzən elə yas məclisləri olur ki, ehsan olaraq süfrəyə 2-3 növ yemək, növbənöv təamlar, çərəzlər, şirniyyat və meyvə qoyulur. Bu da israfçılıq hesab edilir və günah sayılır. Yəni ehsan vermək deyil, süfrədə israfçılıq etmək günahdır.

❑ **Günel MANAFLI**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini

**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**Alıyev İmran Elxan oğluna verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.**

**Elan**

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34






YENİ MÜSAVAT

Son səhifə

N 81 (6109) 17 aprel 2015

# Batan gəmidən xəzinə çıxdı

Almanlar tərəfindən 73 il əvvəl batırılan "City of Cairo" adlı gəmi 5 min metr dərinlikdən çıxarılıb. Gəminin içindən 50 milyon dollar dəyərində xəzinə çıxarılıb. Hindistanın Mumbai şəhərindən İngiltərəyə gedərkən 4 noyabr 1942-ci ildə Afrikanın Helena adaları yaxınlığında batırılan gəmi ilk dəfə ötən əsrin 80-ci illərində tapılıb. Gəminin "Titanik"dən daha dərində batdığı məlum olub. Bu günə qədər gəmini çıxarmaq üçün heç bir dalğıc qrupu dənizin dibinə enə bilməyib. Gəmidən dəyəri 50 milyon dollar olan xəzinə çıxarılıb. 301 sərnişinin olduğu gəmidə 100 ton gümüş pulun olduğu deyilir.






## "Onlar üçün böyrəyimi satacağam"

"Övladlarım ürəyimin bir paralarıdır. Onların ölmələrinə əsla imkan verə bilmərəm. Böyrəyimi satıb pul əldə etmək və balalarımın müalicəsinə başlamaq fikrindəyəm". 5 yaşlı Yogita Nandvana, onun 3 yaşlı bacısı Anişa və 18 aylıq qardaşı Harş Hindistanda yaşayırlar. İki balaca bacı və onların kiçik qardaşı həddən artıq piylənməyə məruz qalıblar. Yogitanın çəkisi 34,1 kq, Anişanın - 47,7 kq, yaşyarımlıq Harşın isə 14,9 kiloqramdır. Milli.az "Daily Mail"ə istinadən bildirir ki, bu uşaqların böyük bacıları, 6 yaşlı Bhavika normal çəkilidir. Daha doğrusu, arıqdır, hətta çəlimsizdir. İki bacı və bir qardaş çox yediklərindən Nandvana ailəsinin başçısı Rameşbhayın dediyinə görə, gələn həftədən etibarən iki ailə saxlayacaq: "Bu uşaqların həftəlik qidası bir ailənin yemək xərci qədərdir. Çox çətin vəziyyət yaranıb. Uşaqların müayinəsi və müalicəsi üçün böyrəklərimdən birini satıb pul əldə etmək niyyətindəyəm".

Hindistanın Qucarat ştatında yaşayan 34 yaşlı Rameşbhay və onun xanımı, 30 yaşlı Praqna Ben pul tapan kimi övladlarını paytaxta, Dehliyə aparmaq istəyirlər.

# Dünyanın ən təhlükəli 12 xəstəliyi



Son iki ildə sürətlə yayılan və indiki vaxtda insanlığın qorxulu yuxusu halına gələn "Ebola" üzündən Beynəlxalq Səhiyyə Təşkilatının rəqəmlərinə bu günə qədər 4 min 493 insan həyatını itirdi və 8 min 997 adama bu xəstəliyə yoluxub. Buna baxmayaraq, "Focus" jurnalında yer alan bir xəbərə görə, "Ebola" dünyanın ən təhlükəli ilk on xəstəliyi siyahısında yer almır. Siyahıda insanların ən çox qorxması lazım olan 12 xəstəliyi bunlardır:

**1)** Tənəffüs yolları xəstəlikləri - ağciyərin iltihablaşması olaraq ən tez rast gəlinən bir ölümcül yoluxucu xəstəlikdir.

**2)** AIDS - ildə 3 milyon insanın həyatını itirdiyi bu xəstəlikdə hələ də yüksək sürətlə yayılır.

**3)** İshal xəstəlikləri - ən çox rast gəlinən xolera, tifo və dizenteriya kimi ishal xəstəlikləri xüsusilə uşaqları öldürür.

**4)** Vərəm - dünyada ildə 1 milyon 600 min adam vərəmdən dünyasını dəyişir. Xüsusilə siqaret çəkənlərin bu xəstəliyə tutulma təhlükəsi çox yüksəkdir.

**5)** Qızdırma - bu tropik xəstəlik dünyada ildə 1 milyon insanın ölümünə səbəb olmaqdadır.

**6)** Qızılca - əslində peyvəndi olan zərərsiz bir uşaq xəstəliyi olaraq görünür. Lakin buna baxmayaraq, ildə 1 milyon insan bu xəstəlik üzündən həyatını itirməkdədir.

**7)** Yuxu xəstəliyi - yalnız tropik Afrikada görünən və çeçen ağcaqanadının sancması ilə yoluxan yuxu xəstəliyi (Tripanozomiyazı) ildə 500 min adamın ölümünə səbəb olmaqdadır.

**8)** Tetanos - peyvəndi olmasına baxmayaraq, tetanosa görə dünyada ildə 300 min adam həyatını itirməkdədir.

**9)** Boğmaca - xüsusilə yeni doğulmuş körpələr bu xəstəliyə tutulurlar. Dünyada bu xəstəlikdən ildə təxminən 300 min insan həyatını itirir.

**10)** Menejit - dünyada ildə 160 - 300 min adam bu üç xəstəlik üzündən (menenjit, Hepatit və sifilis) həyatını itirir.



## Boşanma infarkt riskini artırır

ABŞ tədqiqatçılarının fikrincə, evli həmyaşıdları ilə müqayisədə boşanan insanlarda infarkt riski daha yüksəkdir. Tədqiqatlar 15 827 insan üzərində aparılıb. Məlum olub ki, boşanma nəticəsində daha çox stressə məruz qalmış qadınlar yenidən ailə qurduqda infarkt riski azalır. "Circulation" jurnalında dərc edilən məqalədə iddia olunur ki, boşanma ilə bağlı xroniki stress insan orqanizminə uzun müddətli təsir göstərir.

Britaniya Ürək Federasiyası boşanmanı ürək xəstəliyi riski kimi təsnif etməzdən əvvəl daha geniş tədqiqatlara ehtiyac olduğunu bildirir.




**QOÇ** - Qarşınızda duran bu təqvimdə çoxdan görmədiyiniz dost və qohumlarınıza baş çəkin. Nahar ərəfəsində aldanma ehtimalınız olduğu üçün bir qədər tədbirli olun.

**BUĞA** - Əvvəlki günlərdə verdiyimiz tövsiyələrə əməl etmisinizsə, təxminən saat 12-dən başlayaraq iştirakçısı olduğunuz proseslər xeyrinizə cərəyan edəcək. Özünüzə təzə geyim alın.

**ƏKİZLƏR** - Ulduzlar ovqatınızı yüksəltmək üçün əllərindən gələni edəcəklər. Amma heç olmasa, özünüz də buna azacıq cəhd etməlisiniz. İnsanlara qarşı gülərüz münasibət göstərin.

**XƏRÇƏNG** - Fəaliyyət istiqamətində vaxtınızı çox itirməyin. Onsuz da nəzərdə tutulan nəticəni əldə edə bilməyəcəksiniz. Buraxdığınız səhvləri etiraf etməyi və bağışlamağı bacarmalısınız.

**ŞİR** - Hiss olunur ki, bu gün ümumi gərginlik ovqatınıza hakim olacaq. Elə isə bütün gücünüzü toparlayıb neqativ hallara qarşı müqavimət göstərin. Enerjinizi boş yerə xərcləməyin.

**QIZ** - Bu təqvimin mahiyyətini romantik məcraya yönəltməklə ümumi gərginliyinizi azalda bilərsiniz. Əks cinsin nümayəndələri ilə mehriban davranın. Özünüzü zəhərlənmədən gözləyin.

**TƏRƏZİ** - Riskli işlərə, nəticəsinə əmin olmadığınız sövdələşmələrə girişməyin. Daha çox evdə, ailə üzvlərinizlə, dostlarınızla bir yerdə olmağa çalışın. Qonaq getmək də olar.

**ƏQRƏB** - Günün ümumi görüntüsü qarşıdurmalarla müşayiət olunacaq. Nə qədər çətin olsa da, əsəblərinizi cilovlamağa çalışın. Bunu bacarsanız, axşama yaxın ovqatınız yüksələ bilər.

**OXATAN** - Ətrafınızda olan xeyirxah insanların qədrini bilin. Onsuz da həyatda təkbaşına çox şeyə nail ola bilmirsiniz. Yersiz ittihamlara, dedi-qoduya əhəmiyyət verməklə səviyyənizi endirməyin.

**OĞLAQ** - Bu gün yeganə probleminiz səhhətinizlə bağlı ola bilər. Odur ki, əsəbi situasiyalardan, daxili soyuqdəymədən qorunmalısınız. Qalan məsələlərdə isə ciddi probleminiz olmayacaq.

**SUTÖKƏN** - Dünyanı düzəltmək fikrindən vaz keçin. Özünüzü və ətrafınızdakıları ədalət müstəvisinə çəkə bilsəniz, bu da böyük işdir. Nəzərə alın ki, insanları inandırmaq qabiliyyətiniz aşağıdır.

**BALIQLAR** - Mistik düşüncələrə ciddi yanaşmayın. Əksinə, bu gün uğurlu məqamlar yaşayacaqsınız. Maddi çətinliyi özünüzə dərd etməyin. Axşam çoxdan görüşmədiyiniz yaxınlarınıza baş çəkin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Sevgilisini 40 kilo kökəltdi



Çəkisi 45 kilo olan sevgilisinin oğlanların diqqət mərkəzində olduğunu düşünən You Pan adlı kişi ona davamlı olaraq yemək yedirərək 40 kilo kökəlməsinə səbəb olub. Çində yaşayan 20 yaşlı Yan Tai adlı qadın 2 il əvvəl 45 kilo idi. Çox gözəl olan sevgilisini qısqanan You Pan ona iri porsiya yeməklər yedirtməyə başlayıb. Bu yolla sevgilisini hər kəsdən qoruyacağını düşünən You qızın kökəlməsinə səbəb olub. Hazırda 85 kilo ağırlığı olan qızın səhhətində problem yaransa da, Pan xoşbəxtdir. Çünki o, kök də olsa sevgilisi ilə evlənmək istəyir.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300